QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 219 (5450) 30 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bu gün Azərbaycan səhiyyə infrastrukturu baxımından dünya miqyasında qabaqcıl yerlərdədir"



Səh 2

**Prezident İlham Əliyev Kosta Rikanın xarici işlər və etiqad nazirini qəbul edib**



5

**İtaliyanın informasiya agentliyi: Azərbaycan NATO və Avropa İttifaqı ilə münasibətləri gücləndirir**



4

**Prezident Həsən Ruhani: Azərbaycan bizə qonşu və dost dövlətdir**



7

**Cəbhəboyu zonadakı raket və artilleriya bölmələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılıb**



14

**Çin səfiri: "Azərbaycan Avropanı Asiya ilə bağlayan mühüm nəqliyyat qovşağıdır"**



8

**"Dağlıq Qarabağ tənzimlənməsi Putin planı üzrə mərhələli variantda reallaşdırılır"**



12

12

**Sarkisyan rejiminin total saxtakarlığı**



11

**30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür**



16

**"Qalatasaray" öz meydanında rəqibini darmadağın edib**



# İlham Əliyev: “Bu gün Azərbaycan səhiyyə infrastrukturu baxımından dünya miqyasında qabaqcıl yerlərdədir”

## *Dövlətimizin başçısı bu fikri Sabirabad Rayon Mərkəzi Xəstəxanasının açılışındakı çıxışında deyib*



***Xəbər verdiyimiz kimi, noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sabirabad rayonuna səfəri çərçivəsində 205 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.***

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.

Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, bu səhiyyə müəssisəsində 553 tibb işçisi çalışacaq. Onların 70-i həkimdir. Bu tibb ocağındakı cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, doğum, nevrologiya, anesteziologiya və reanimasiya, hemodializ, fizioterapiya, infeksion, poliklinika, təcili təxirəsalınmaz yardım şöbələri, klinik laboratoriya, şüa diaqnostika kabinetləri tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib. Xəstəxananın yardımçı binalarında qazanxana, su anbarı və generatorlar quraşdırılıb. Ərazi abadlaşdırılıb, yaşıllıq zolağı salınıb. Xəstəxana ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Sabirabad rayon ictimaiyyətinin nümayəndələri və tibb işçiləri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında bildirib ki, həm xarici görünüşü, həm də daxili şəraiti baxımından zövq oxşayan 205 çarpayılıq Sabirabad Rayon Mərkəzi Xəstəxanası ən yüksək standartlara cavab verir. Bu, çox gözəl memarlıq abidəsidir. Burada dünyanın aparıcı şirkətlərinin ən qabaqcıl avadanlığı quraşdırılıb, bütün şərait yaradılıb. Burada bütün şöbələr, o cümlədən cərrahiyyə, dializ, reanimasiya, terapiya şöbələri fəaliyyət göstərir. Bir sözlə, Sabirabad şəhərində açılan bu xəstəxana dünya səviyyəsində seçilən xəstəxanalardan biri olacaq:



“Bu, onu göstərir ki, ölkəmizin bütün bölgələrində gözəl imkanlar var. Bu, onu göstərir ki, Azərbaycan bundan sonra da sosial sahədə böyük uğurlara imza atacaq. Çünki belə xəstəxanaların tikintisi, əlbəttə ki, maliyyə vəsaiti tələb edir və bu, təmin olunur. Azərbaycan iqtisadiyyatı inkişaf edir, maliyyə vəziyyətimiz sabitdir, siyasətimiz sosialyönümlüdür və sosial sahənin inkişafı bizim prioritetimizdir. Ölkəmizin bütün bölgələrində müasir xəstəxanalar istifadəyə verilib. Hesab edirəm, 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın. Gələn il təqribən altı yeni mərkəzi rayon xəstəxanası açılacaqdır. 2019-cu ildə qalan xəstəxanalar da istifadəyə veriləcək və beləliklə, Azərbaycanın hər bir şəhərində ən müasir tibbi xidmət göstəriləcək.

Səhiyyə sahəsində görülmüş işlər öz nəticəsini verir. Çünki bizim bütün göstəricilərimiz müsbətə doğru dəyişir, insanların ömrünün uzunluğu artır, həyat keyfiyyəti yaxşılaşır, ana və uşaq ölümü azalır. Bütün bunlar beynəlxalq səhiyyə təşkilatları tərəfindən də qiymətləndirilir. Bu gün Azərbaycan səhiyyə infrastrukturu baxımından dünya miqyasında qabaqcıl yerlərdədir. Bununla paralel olaraq, Azərbaycan, hesab edirəm, yeganə ölkədir ki, burada hər bir vətəndaş dövlət hesabına ildə bir dəfə pulsuz müayinədən keçir. Biz bu layihəyə bir neçə il bundan əvvəl başlamışıq. Hər il beş milyondan çox Azərbaycan vətəndaşı müayinədən keçir və artıq öz sağlamlığı, səhhəti ilə bağlı bütün bilgiləri alır. Bu, bizə imkan verir ki, xəstəliklər vaxtında müəyyən edilsin və lazımi müalicə də təyin olunsun. Hər il beş milyondan çox insan dövlət hesabına pulsuz müayinədən keçir. Belə gözəl tibb ocaqlarının yaradılması, əlbəttə ki, bizə bu təşəbbüsü irəli sürməyə imkan verdi. Çünki əgər şərait olmasaydı, biz bu proqramı icra edə bilməzdik.

Bir sözlə, Bakı şəhərində, bütün rayonlarda yeni səhiyyə ocaqlarının tikintisi prosesi, demək olar ki, başa çatır. Biz bu işlərə 2004-cü ildən başlamışıq. O vaxt birinci növbədə müalicə-diaqnostika mərkəzləri, ondan sonra mərkəzi rayon xəstəxanaları, ixtisaslaşmış xəstəxanalar yaradıldı. Bu gün səhiyyə sisteminin maddi-texniki bazası yüksək standartlara tam cavab verir.

Əvvəlki dövrlərdə də Sabirabad rayonunda sosial məsələlərin həllinə həmişə böyük diqqət göstərilmişdir. Son illər ərzində burada 30-a yaxın məktəb tikilib və təmir olunub, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, “ASAN xidmət” mərkəzi istifadəyə verilib. Bölgələr üzrə ilk rayonlardan biri də Sabirabad idi ki, “ASAN xidmət” mərkəzi yaradılmışdır. Yəni, biz bütün bu işləri ona görə görürük ki, burada insanlar daha da yaxşı yaşasınlar, daha da yaxşı xidmətlərə malik olsunlar, həmçinin səhiyyə, təhsil, idman, ictimai xidmətlər yüksək səviyyədə təmin edilsin və biz buna nail oluruq.

Sabirabad rayonunda infrastruktur layihələri də icra edilir. Mənə verilən məlumata görə, qazlaşdırma artıq 90 faizə çatıbdır. Ümid edirəm ki, gələn il Sabirabadda qazlaşdırma 100 faizə çatacaqdır. Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Biz içməli su layihəsini sizinlə birlikdə üç il bundan əvvəl istifadəyə vermişik, kənd yollarının tikintisi uğurla gedir. Bu gün mən iki böyük layihənin açılışını qeyd edəcəyəm, gələn il də yeni kənd yolları layihəsi icra olunacaq. Beləliklə, hesab edirəm ki, gələn il Sabirabad rayonunun əksər kəndlərinin yolları tam təmirli olacaqdır.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Bu gün Azərbaycan səhiyyə infrastrukturu baxımından dünya miqyasında qabaqcıl yerlərdədir”

*Dövlətimizin başçısı bu fikri Sabirabad Rayon Mərkəzi Xəstəxanasının açılışındakı çıxışında deyib*





**Əvvəli-Səh-2**

Çünki bu günə qədər dörd layihə icra edilibdir. Bu layihələr 100 mindən çox əhalini əhatə edir. Rayon əhalisinin sayı təqribən 180 minə yaxındır. Növbəti layihə də bir neçə min insanı əhatə edəcək və beləliklə, biz kənd yolları məsələlərini də həll etmiş olacağıq. Yadımdadır, səfərlərimin birində vətəndaşlar körpü tikintisi ilə bağlı müraciət etmişdilər. Biz onu da vaxtında icra etdik və mən də açılışa gəlmişdim. Yəni, biz Sabirabad üçün nə lazımdırsa, artıqlaması ilə edirik. Çünki yeni təşəbbüslər də irəli sürülür. Onlardan biri də bu yaxınlarda mənim tərəfimdən irəli sürülüb. Bu təşəbbüs ondan ibarətdir ki, Sabirabadda böyük sənaye məhəlləsi yaradılsın. Bu gün mən o məhəllənin təməlini qoymuşam və əminəm ki, yaxın gələcəkdə Sabirabad böyük sənaye mərkəzinə çevriləcəkdir.

Sənaye məhəllələrinin yaradılması prosesi bir neçə il bundan əvvəl başlamışdır. Biz birinci məhəlləni Neftçala rayonunda yaratdıq və bu yaxınlarda onun açılışını etdik. Ondan sonra daha iki rayonda - Masallı və Hacıqabulda sənaye məhəllələrinin yaradılması istiqamətində işlər başlamışdır. Dördüncü sənaye məhəlləsi Sabirabadda yaradılacaqdır. Çünki burada çox böyük insan potensialı, təcrübəli mütəxəssislər var.

Azərbaycanın gələcək inkişafı kənd təsərrüfatının və sənayenin inkişafı ilə bağlıdır. Ona görə bu gün mənə Sabirabad Sənaye Məhəlləsinin layihəsi təqdim olundu. Mən fürsətdən istifadə edərək sabirabadlı iş adamlarına müraciət edirəm ki, onlar öz təkliflərini versinlər. Sənaye məhəlləsində bütün işlər, o cümlədən tikinti, istehsalat sahələrinin inşası, rabitə, infrastruktur, kommunikasiyalar, işıq, qaz, yollar, müəssisələrin yaradılması dövlət vəsaiti hesabına təmin ediləcək. Qaldı ki, sahibkarlara, onlar öz təkliflərini versinlər, avadanlıq alsınlar. Bu məsələdə də dövlət onlara kömək göstərəcək, güzəştli kreditlər, investisiya təşviqi sənədi verəcək və tezliklə burada böyük sənaye məhəlləsinin fəaliyyəti təmin ediləcəkdir.

Gələn il Sabirabadın inkişafı ilə bağlı infrastruktur layihələrinin - xüsusilə yeni kanal layihəsinin icrası nəzərdə tutulur. Bilirəm ki, bu məsələ Sabirabad zəhmətkeşlərini çox narahat edir. Bu layihə başlanmışdı, sonra yarımçıq qaldı. Mən göstəriş verdim, maliyyə vəsaiti nəzərdə tutulacaq və gələn il bu layihə tam başa çatacaq. Beləliklə, ən azı 11 min hektar torpağın suvarılması ilə bağlı heç bir problem olmayacaq.

Beləliklə, yeni əkin sahələri dövriyyəyə cəlb ediləcək. Zəhmətkeşlər, fermerlər, yerli icra orqanları birlikdə baxsınlar ki, burada hansı kənd təsərrüfatı məhsulları yetişdirilməlidir. Sabirabadın çox böyük potensialı var. Əlbəttə ki, ənənəvi kənd təsərrüfatı sahələri var, o cümlədən pambıqçılıq. Biz pambıqçılığın bərpasını da Sabirabaddan başladıq. Uzun fasilədən sonra birinci müşavirə Sabirabadda keçirildi. Biz ulu öndər Heydər Əliyevin ənənələrini bərpa etdik. Birinci tanış olduğum tarla Fatma xanımın tarlası idi. Orada zəhmətkeşlərlə yaxşı görüş oldu, sonra müşavirə keçirildi. Beləliklə, iki il ərzində biz pambıq tədarükünü 8 dəfə artıra bilmişik. 2015-ci ildə cəmi 35 min ton pambıq yığılmışdısa, bu il biz artıq 190 min tona çatmışıq. Təqribən 200 min ton, bəlkə ondan da çox pambıq tədarük edəcəyik. Texnika alınır, gübrələr verilir, suvarma işləri təmin olunur, vəsait ayrılır. Dövlət bu sahəni tam nəzarətə götürüb. Beləliklə, pambıqçılığın inkişafı sürətlə gedir və bilirsiniz ki, bu, məşğulluğu da artırır. Mənə verilən məlumata görə, indi 20 min insan pambıqçılıq sahəsində işləyir, hər gün əməkhaqqı alır, evinə pul aparır, həm dövlətə, həm özünə xeyir verir və ölkəmiz də inkişaf edir.

Ona görə növbəti illərdə həm Sabirabadda, həm də bütün başqa rayonlarda suvarma ilə bağlı nə lazımdırsa, biz onu da edəcəyik. İndi bütün layihələr təhlil edilir. Biz bu il qarşıya hədəf qoymuşuq ki, bu vaxta qədər suvarılmayan 150 min hektar torpaqda suvarmanı təmin edək. Biz bu hədəfə yaxınlaşırıq. Gələn il isə qarşıya məqsəd qoyulub ki, ən azı əlavə 100 min hektarda suvarma işləri təmin edilsin. Görün, məhsuldarlıq, iş yerləri, ölkəmizin ümumi daxili məhsulu nə qədər artacaq.

Planlarımız çoxdur. Gələn il fəal işləməliyik. Bu il də uğurla başa çatır. Baxmayaraq ki, son illər ölkə iqtisadiyyatı üçün o qədər də asan illər olmamışdır. Təbii ki, neftin qiymətinin aşağı düşməsi, dünyada gedən iqtisadi-maliyyə böhranı bizə də təsir etdi. Ancaq hesab edirəm ki, biz bu sınaqdan şərəflə çıxdıq. Heç bir sosial proqramı ixtisar etmədik, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapdı. Biz hətta böhranlı illərdə xəstəxanalar açırıq. Bu gün Ağcabədidə böyük Olimpiya mərkəzi, Tərtərdə 1170 ailə üçün 34 binadan ibarət köçkün şəhərciyi açılıbdır. Ancaq bir gündə. Mən hələ yolları, hərbi hissələri demirəm. İndi quşçuluq fabriki açılacaq. Yəni, bir gündə baxın, nə qədər böyük işlər görülür və biz bu açılışlarda bərabər iştirak edirik. Əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu olacaq və biz gələn ili də uğurla başa vuracağıq. Sizi bir daha təbrik edirəm.”

x x x

**Xəstəxananın həkimi Elmira Zeynalova** çıxış edib:

- Möhtərəm cənab Prezident, Sizi Sabirabadın səhiyyə işçiləri və əhalisi adından bir daha salamlayıraq. Sabirabada xoş gəlmisiniz. Bu gün Sabirabad camaatı böyük sevinc içindədir. Sizin tapşırığınızla belə gözəl, müasir standartlara cavab verən böyük səhiyyə ocağı inşa edilib və bu gün Sabirabad əhalisinin istifadəsinə verilib. Bizə göstərdiyiniz etimada, bu gözəl səhiyyə ocağını sabirabadlılara bəxş etdiyinizə görə Sizə dərindən minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, belə gözəl şəraitdə biz daha yaxşı işləyəcəyik və vətəndaşlarımıza layiqincə xidmət göstərəcəyik.

Möhtərəm cənab Prezident, hamıya yaxşı məlumdur ki, Siz insanların sağlamlığına ciddi fikir verirsiniz. Sizin tapşırığınızla əhalimiz hər il kütləvi surətdə tibbi müayinədən keçirilir. Belə tibbi müayinələrin keçirilməsi bu cür gözəl şəraitdə daha geniş, mütəşəkkil şəkildə təşkil olunacaqdır. Bu baxımdan bizə yaradılan şəraitə görə Sizə və Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Sabirabad rayonu gündən-günə abadlaşır, gözəlləşir, yeni-yeni təhsil müəssisələri, tibb ocaqları yaradılır, parklar salınır. Bütün bunlara görə bir daha Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun, var olun, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: Bu müasir xəstəxana siz həkimlər üçün gözəl iş yeridir. Həm də vətəndaşlar belə gözəl şəraitdə yüksək səviyyədə müalicə olunacaqlar.

Sonra dövlətimizin başçısı Sabirabad rayonundan olan fermer Fatma Hüseynova ilə söhbət etdi.

**Prezident İlham Əliyev**: Fatma xanım, necəsiniz?

**Fatma Hüseynova:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** İşləriniz necə gedir?

**Fatma Hüseynova:** Əla. Bu il otuz hektarda pambıq əkmişdim.

**Prezident İlham Əliyev:** Məhsuldarlıq necədir?

**Fatma Hüseynova:** Məhsuldarlıq da yaxşıdır, hektardan 55 sentneri keçmişəm. Hələ yığım davam edir.

**Prezident İlham Əliyev:** Bax, hamı Fatma xanımdan nümunə götürməlidir - 55 sentner.

**Fatma Hüseynova:** Sabirabadlılar Sizi çox sevirlər. Biz Sizi də, Mehriban xanımı da həddən artıq çox sevirik.

**Prezident İlham Əliyev:** Mən də sizi çox sevirəm.

**Fatma Hüseynova:** Bizim məktəbimiz Ulu Öndərimizin adı ilə bağlıdır. O məktəb Ulu Öndərin göstərişi ilə tikilib. İndi bir korpusu təmir olunub, biri yarımçıq qalıb.

**Prezident İlham Əliyev:** Yaxşı, indi onun təmiri ilə bağlı tapşırıq verəcəyəm. Sağ olun.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

səs

www.sesqazeti.az
facebook Ses Media Holding

30 noyabr 2017-ci il

# Xorvatiya Azərbaycanla əlaqələrə böyük önəm verir

## *Prezident İlham Əliyev Xorvatiyanın Baş nazirinin müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Xorvatiya Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri, Azərbaycan-Xorvatiya iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyasının həmsədri xanım Martina Daliçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yaxşı səviyyədə olduğunu dedi. Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin Azərbaycana səfərini xatırlayan Prezident İlham Əliyev bu səfərin uğurla keçdiyini bildirdi və ölkələrimiz arasında müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından qarşılıqlı ticarət, investisiya qoyuluşu, ölkələrimizin daha çox şirkətlərinin birgə çalışmasının önəmini vurğuladı. Prezident İlham Əliyev bu baxımdan iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyətinin əhəmiyyətini qeyd etdi. Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan Prezident İlham Əliyev bu yaxınlarda Şərq Tərəfdaşlığı Sammitinin uğurla keçirildiyini və yaxşı nəticələr verdiyini bildirərək sammitdə qəbul edilən Bəyannamənin əhəmiyyətini vurğuladı, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində danışıqlar aparıldığını və bu sazişin əməkdaşlığımızın qarşılıqlı maraq doğuran bütün sahələrini, o cümlədən siyasi, iqtisadi, enerji, mədəniyyət sahələrini əhatə edəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Xorvatiya arasında energetika sahəsində uzunmüddətli əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu deyərək Xorvatiyanın "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasında mütəmadi iştirak etməsindən məmnun olduğunu bildirdi.

Xorvatiya Baş nazirinin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri, Azərbaycan-Xorvatiya iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyasının həmsədri Martina Daliç Xorvatiyanın Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin və Baş nazir Andrey Plenkoviçin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Martina Daliç Bakıya gəlişindən məmnunluğunu ifadə edərək ölkəmizdə özlərini evdəki kimi hiss etdiklərini bildirdi. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu deyərək, iki dövlət başçısının əməkdaşlığımızın genişlənməsi baxımından birgə səylərinin önəmini qeyd etdi. Xanım Martina Daliç sərmayə qoyuluşu, ticarət və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu dedi və iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın uğurla fəaliyyət göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin və Baş nazir Andrey Plenkoviçin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Xorvatiya Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

# İtaliyanın informasiya agentliyi: Azərbaycan NATO və Avropa İttifaqı ilə münasibətləri gücləndirir

***İtaliyanın "Agenparl" informasiya agentliyi "Azərbaycan NATO və Avropa İttifaqı ilə münasibətləri gücləndirir" adlı məqalə yayıb.***




AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçikaya işgüzar səfəri çərçivəsində NATO-nun baş katibi Yens Stoltenberq ilə görüşü, müzakirə olunan məsələlər, o cümlədən NATO-nun Şimali Atlantika Şurasının iclasında çıxışı barədə məlumat verilir.

Bildirilir ki, Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə həyata keçirilən uğurlu əməkdaşlıq əlaqələrindən, Azərbaycanın NATO-nun müxtəlif missiya və əməliyyatlarında fəal iştirakından, Ermənistanın Azərbaycana qarşı təcavüzündən bəhs edib. Dövlət başçısı münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun həllinin vacibliyini vurğulayıb, həmçinin Azərbaycanın iqtisadi inkişafı, iştirak etdiyi irimiqyaslı layihələr, Cənub Qaz Dəhlizinin strateji önəmi haqqında danışıb.

Məqalədə Prezident İlham Əliyevin Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Donald Tuskun dəvəti ilə Şərq Tərəfdaşlığı Sammitində iştirakı və Sammitin plenar iclasındakı çıxışından da bəhs olunur. Qeyd edilir ki, Prezident İlham Əliyev Avropa İttifaqını Azərbaycanın ən əsas ticarət tərəfdaşı adlandırıb və təşkilat ilə əməkdaşlığın inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasət prioritetlərindən biri olduğunu vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanın xarici ticarət dövriyyəsinin 50 faizinin Avropa İttifaqına üzv ölkələrin payına düşdüyünü və Azərbaycanın Aİ-nin doqquz ölkəsi ilə strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul etdiyini bildirib. Həmçinin qeyd edilir ki, dövlət başçısı Azərbaycanda siyasi, iqtisadi, demokratiya və insan hüquqları, sosial sahədə həyata keçirilən uğurlu islahatlar haqqında danışıb, Azərbaycanın sürətlə inkişaf etdiyini vurğulayıb. Bundan əlavə, Prezident Bakı-Tbilisi-Qars dəmir yolunun strateji əhəmiyyətindən bəhs edib, eləcə də Avropanın enerji xəritəsinə əhəmiyyətli dərəcədə təsir göstərəcək Cənub Qaz Dəhlizindən söz açıb.

Yazıda Şərq Tərəfdaşlığı Sammitində qəbul edilmiş Birgə Bəyannamə haqqında da məlumat verilir. Bildirilir ki, Bəyannamədə Şərq Tərəfdaşlığının bütün dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı olaraq bir daha dəstəklənib, Şərq Tərəfdaşlığı ölkələrinin ərazilərində baş verən bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması vurğulanıb, Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik Qlobal Strategiyasına istinad olunub ki, həmin sənəddə Avropa İttifaqının üzv və qonşu dövlətlərinin ərazi bütövlüyü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində qeyd edilib.

Məqalədə, həmçinin vurğulanır ki, Birgə Bəyannamədə Azərbaycan Respublikasının fəal iştirakı ilə həyata keçirilən nəqliyyat və enerji layihələrinə xüsusi dəstək qeyd edilib, "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb etdiyi əks olunub. Bəyannamədə Azərbaycan Respublikasının iştirakı ilə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçirilən ikitərəfli və çoxtərəfli layihələrə xüsusi diqqət yetirilib. Gələcək illər üçün Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçiriləcək birgə əməkdaşlıq istiqamətləri sırasında Azərbaycan Respublikasının Avropa İttifaqı ilə vizasız gediş-gəliş sənədlərinin işlənməsi xüsusi yer alıb.

Məqalənin tam mətni ilə bu linkdən tanış olmaq mümkündür: http://www.agenparl.com/roma-lazerbaigian-rafforza-rapporti-nato-ed-ue/

**Asiman Əsədov**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**Roma**

# Prezident İlham Əliyev Kosta Rikanın xarici işlər və etiqad nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Kosta Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzı qəbul edib. AZƏRTAC xəbər verir ki, Kosta Rikanın xarici işlər və etiqad naziri Manuel Qonzales Sanz ölkələrimiz arasında ikitərəfli münasibətlərin qarşılıqlı etimad üzərində qurulduğunu qeyd etdi. Azərbaycanda Kosta Rikanın səfirliyinin açılmasına toxunan Manuel Qonzales Sanz bildirdi ki, bu, ölkəsinin strateji qərarıdır. O qeyd etdi ki, Kosta Rika Azərbaycanı regionda əsas tərəfdaşı kimi qəbul edir və Azərbaycan vasitəsilə regional əməkdaşlıq həyata keçirmək əzmindədir.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev ölkələrimiz arasında səmimi dostluq münasibətlərinin mövcud olduğunu dedi. Dövlətimizin başçısı Kosta Rikanın Azərbaycanda səfirlik açmasının önəmini qeyd etdi və səfirliyin fəaliyyətinin həm ikitərəfli münasibətlərin genişləndirilməsi, həm də regional əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi. Görüş zamanı iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu, ticarət əlaqələri və kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün kifayət qədər imkanların olduğu vurğulandı və bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev CISCO şirkətinin nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Qay Didrix təmsil etdiyi şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini və Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə səmərəli əməkdaşlıq etdiyini dedi. Prezident İlham Əliyevlə əvvəlki görüşlərini məmnunluqla xatırlayan qonaq həmin görüşlərdən sonra çox yaxşı nəticələrin əldə olunduğunu bildirdi. Azərbaycanla bağlı bir sıra mühüm layihələr üzərində işlədiklərini deyən Qay Didrix CISCO şirkətinin ölkəmizlə əməkdaşlığa böyük önəm verdiyini və Azərbaycanda işlərin qısa zaman ərzində səmərəli şəkildə icrası üçün hər cür imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev CISCO şirkəti ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini bildirdi. Dövlətimizin başçısı, öz növbəsində, şirkətin rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı və həmin görüşlərdən keçən dövr ərzində əlaqələrimizin inkişafı üçün yaxşı əsasların yarandığını qeyd etdi, bu əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.

İnformasiya texnologiyaları sahəsinin Azərbaycan üçün prioritet sahələrdən biri olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı işlərin Azərbaycan iqtisadiyyatının sürətli inkişafı baxımından əhəmiyyətini qeyd etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Tofiq Həsənova ədliyyə general-mayoru ali xüsusi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Ağcabədi şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Tərtər şəhərində çoxmənzilli binaların əsaslı təmiri və abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 2005-ci il 1 iyun tarixli 834 nömrəli, "İxrac Nəzarəti üzrə Komissiyanın və idarələrarası ekspertlər qrupunun yaradılması haqqında" 2006-cı il 19 dekabr tarixli 1839 nömrəli və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası üzrə Milli Fəaliyyət Qrupunun yaradılması haqqında" 2013-cü il 29 may tarixli 2918 nömrəli sərəncamlarında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycan ilə Kosta Rika arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar var

***Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan Kosta Rikanın xarici işlər və etiqad naziri Manuel Qonzalez Sanz ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirlər 2017-ci ilin Kosta Rika və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 20 illiyi ilə əlamətdar olduğunu qeyd edərək, ötən 20 il ərzində iki ölkə arasında mövcud siyasi dialoq və qarşılıqlı anlaşmanın müsbət inkişafından məmnunluq ifadə ediblər.***

Elmar Məmmədyarov Kosta Rikanın Azərbaycanda səfirlik təsis etmək qərarının yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Nazirlər hər iki ölkədə diplomatik missiyaların mübadiləsinin qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə yeni təkan verəcəyinə əminlik ifadə ediblər.

Elmar Məmmədyarov iyun ayında Kosta Rikaya rəsmi səfərini xoş təəssüratlarla xatırlayaraq keçirilmiş məhsuldar görüşlərin, səfər çərçivəsində baş tutmuş siyasi məsləhətləşmələrin iki ölkə arasında münasibətlərin müxtəlif sahələrində inkişafına töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib.

Nazirlər, həmçinin ikitərəfli münasibətlərin irəliləDilməsi baxımından parlament diplomatiyasının xüsusi rol oynadığını bildirərək, parlament nümayəndə heyətlərinin mübadiləsinə dair ortaq təşəbbüslə çıxış ediblər. Onlar Azərbaycanın və Kosta Rikanın bir-birinin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət və dəstəyi bir daha bəyan ediblər. Nazilər, həmçinin gücdən istifadə ilə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu vurğulayıblar.

Tərəflər iqtisadi-ticarət, turizm, enerji, logistika, limanlar və gəmiçilik, sərmayələrin qoyuluşu və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar olduğunu qeyd ediblər və bu xüsusda işgüzar dairələr arasında birbaşa təmasların təşviq edilməsinin vacibliyini vurğulayıblar.

# İkili standartlar etnik separatçılığa qarşı qətiyyətli və prinsipial şəkildə mübarizə aparılmasına maneçilik törədir

***Müasir dünyada sabitliyə, inkişafa və təhlükəsizliyə təhdid olan başlıca faktorlar separatizm, terrorizm və radikalizm kimi ümumi bəlalardır. Çox təəssüflər olsun ki, bu gün bir çox dövlətlər bu bəlalardan xilas olmaq üçün birlik əvəzinə, separatçılara və terrorçulara dəstək verirlər.***

Bu səbəbdən də, qlobal və regional təhlükəsizlik daim təhdid altında olur. Lakin Azərbaycan dövləti daim çalışır ki, separatizmin və terrorizmin qarşısı alınsın. Bütün imkanlardan istifadə edən Azərbaycan müxtəlif vasitələrdən istifadə etməklə bu bəlalara qarşı mübarizə aparır. Elə ötən həftə Avropada - Brüsseldə və Afinada keçirilən konfranslarda bi problemə toxunulub. VI Qlobal Bakı Forumuna hazırlıq məqsədilə təşkil edilən "Avro-Aralıq dənizi Tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksəksəviyyəli Toplantıda Azərbaycan bir daha öz mövqeyini aydın şəkildə ifadə etdi.

Aralıq dənizi hövzəsindəki humanitar böhranların qarşısının alınması üçün ideya və təşəbbüsləri bölüşmək, miqrasiya, inteqrasiya, milli kimlik və multikulturalizm, xüsusilə də, separatizm və öz müqəddəratını təyin etmək kimi olduqca mühüm, əhəmiyyətli məsələlərin müzakirəyə çıxarıldığı beynəlxalq tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çox vacib problemlərə toxundu. O, Avropa İttifaqı, Şimali Afrika, Orta Şərq və Cənub-Şərqi Avropa ölkələrini birləşdirən Aralıq dənizi hövzəsində beynəlxalq terrorizmin və etnik separatizm kimi təhlükəli meyillərin doğurduğu böhranın həlli yollarının axtarılması ilə bağlı müzakirələr aparılmasının böyük əhəmiyyət daşıdığını diqqətə çatdırdı. Qaçqın və miqrant problemlərinin, insan alverinin, qaçaqmalçılığın, siyasi və iqtisadi sabitliyə, nəqliyyat-enerji təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasındakı çətinliklərin narahatlıq doğurduğunu qeyd edən Əli Həsənov vurğuladı ki, müşahidələr bu təhdidlərin içərisində etnik separatizm və onun mənfi təzahürlərinin xüsusi yer tutduğunu göstərir.



*Əli Həsənov: "Bəzi hallarda aparıcı beynəlxalq təşkilatlar etnik separatçılığın aradan qaldırılmasını nəzərdə tutan, təsirli mübarizə metodlarını və cinayətkarların cəzalandırılması mexanizmini özündə ehtiva edən hüquqi normalara bütün dünya dövlətlərinin əməl edib-etməməsi məsələsinə biganə yanaşırlar"*





Müasir dünyada etnik separatizm meyillərinin güclənməsinin regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına, bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşamasına mənfi təsir göstərən mühüm amillərdən biri olduğunu nəzərə çatdıran Əli Həsənov hazırda dünyada 220 milyon nəfərdən çox əhalini və 12,7 milyon kvadratkilometr ərazini əhatə edən 50-dən çox əsas etnik separatizm ocağının mövcud olduğunu, etnik separatizm nəticəsində yaranan münaqişələrin 20-dən çoxunun hərbi toqquşmalarla müşayiət edildiyini qeyd etdi.

Prezidentin köməkçisi bildirdi ki, etnik münaqişələrin yayılma coğrafiyası, demək olar ki, dünyanın əksər bölgələrini əhatə edir. "Soyuq müharibə"nin başa çatmasından sonra keçmiş SSRİ məkanında etnik separatizm meyillərinin yeni dalğası meydana gəldi, Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Osetiya, Moldovada Dnestryanı münaqişələr regionun sabitliyini hər an poza biləcək potensial təhlükə mənbəyinə çevrildi. Əli Həsənov nəzərə çatdırdı ki, bu münaqişələr beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozulmasına və dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşı ciddi təhdidlərin yaranmasına gətirib çıxarır.

BMT, ATƏT və Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatların etnik separatizmə qarşı qətiyyətlə mübarizə aparması bu gün vacib məsələlərdən biridir. Prezidentin köməkçisi açıq şəkildə bildirdi ki, hazırda beynəlxalq münasibətlər sistemində hökm sürən ikili standartlar siyasəti etnik separatçılığa qarşı qətiyyətli və prinsipial şəkildə mübarizə aparılmasına maneçilik törədir. Bəzi hallarda aparıcı beynəlxalq təşkilatlar etnik separatçılığın aradan qaldırılmasını nəzərdə tutan, təsirli mübarizə metodlarını və cinayətkarların cəzalandırılması mexanizmini özündə ehtiva edən hüquqi normalara bütün dünya dövlətlərinin əməl edib-etməməsi məsələsinə biganə yanaşırlar. Bu isə BMT, ATƏT və Avropa Şurası kimi təşkilatların obyektivliyinin və prinsipiallığının üzərinə kölgə salır.

Prezidentin köməkçisi Azərbaycanın mövqeyini bir daha bəyan etdi: "Mənim ölkəm 1993-cü ildən etibarən Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bəyan edib və bu qurumla müxtəlif sahələrdə əlaqələr qurmağa başlayıb. "Qonşuluq siyasəti" və "Şərq Tərəfdaşlığı" proqramları çərçivəsində, o cümlədən, vətəndaş cəmiyyəti quruculuğu prosesində Azərbaycanın gördüyü işlər Aİ tərəfindən yüksək qiymətləndirilib. Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi ilə bağlı Azərbaycanla Aİ-nin geosiyasi maraqları üst-üstə düşür və bu qurumu təmsil edən böyük transmilli korporasiyalar bölgədə həyata keçirilən transmilli layihələrdə yaxından iştirak edirlər".

Azərbaycan ilə Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sayəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsi reallaşdı. Azərbaycanın Xəzər hövzəsinin enerji resurslarının birgə istismarı və alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracı sahəsində apardığı siyasət, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərin müasir tələblərə uyğun yenidən qurulması Aİ tərəfindən dəstəklənir.

On il qabaq, 2007-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış tərəfdaşlıq müqaviləsini "Cənub Qaz Dəhlizi"nin icrası istiqamətində mühüm addımlardan biri kimi dəyərləndirən Əli Həsənov Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Transanadolu (TANAP) Qaz Kəməri və Transadriatik (TAP) Qaz Boru Kəməri kimi layihələrin Aİ-nin lazımi dəstəyini qazandığını və Avropa Komissiyasının ortaq maraqlara xidmət edən prioritet enerji təhlükəsizliyi layihələri sırasına daxil edildiyini vurğuladı. O, Xəzər hövzəsinin və Orta Şərqin zəngin enerji ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı Azərbaycanın gördüyü işlərin Aİ tərəfindən yüksək qiymətləndirildiyini də xatırlatdı.

Azərbaycanın yalnız Avropa İttifaqının enerji təminatı və təhlükəsizliyi baxımından, habelə, "Qonşuluq" siyasətinin əsas tərəfdaşlarından biri kimi deyil, həmçinin, dünyanın müxtəlif bölgələrində - Əfqanıstanda, İraqda, Balkanlarda və s. həyata keçirdiyi sülhyaratma proseslərində birbaşa iştirakı, NATO-nun qeyri-hərbi ehtiyatlarla təchizatı və təhlükəsiz hava dəhlizinin təqdim olunması istiqamətində fəaliyyəti ilə Qərbin etibarlı tərəfdaşı hesab olunduğunu bildirən Əli Həsənov dedi: "Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə danışıqlar prosesi davam edir. İnanıram ki, bu sənədin imzalanması tərəflər arasında siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər sahələrdə genişmiqyaslı əməkdaşlığın möhkəmlənməsi üçün əlverişli imkanlar yaradacaq".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi hələ də həllini tapmamış problemlərin Azərbaycanın Avropa İttifaqı ilə yüksək səviyyədə tərəfdaşlıq münasibətlərinin inkişaf etməsinə əngəl törətdiyini vurğulayan Əli Həsənov qeyd etdi ki, münaqişə ilə bağlı BMT-nin, o cümlədən, Aİ-nin müvafiq qətnamələrinin tələblərinə baxmayaraq, Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirir: "Biz bu qənaətdəyik ki, Aİ-nin işğalçı dövlətə qarşı sərt mövqedən çıxış etməsi bu qurumla Azərbaycan arasındakı strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirən növbəti mühüm amillərdən biri ola bilər".

**"Səs" Analitik Qrupu**

# Cəbhəboyu zonadakı raket və artilleriya bölmələrinin döyüşə hazırlıq səviyyəsi yoxlanılıb





Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhəboyu zonada yerləşən raket və artilleriya bölmələrinin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müxtəlif hərbi hissələrin saxlanclarında qorunan artilleriya sistemləri, eləcə də eşelonlaşdırılmış ehtiyat sursat, mərmilər və digər texniki vasitələrə baxış keçirilib. Müdafiə naziri raket və artilleriya qoşunlarının döyüşə hazırlıq səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.

# Prezident Həsən Ruhani: Azərbaycan bizə qonşu və dost dövlətdir



*İran Azərbaycan və Rusiya ilə əməkdaşlıq əlaqələrini davam etdirərək daha yüksək səviyyəyə çatdıracaq. Bu sözləri İran Prezidenti Həsən Ruhani dövlət televiziyasına müsahibəsində deyib.*

Prezident bildirib ki, hər üç dövlət Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin tezliklə formalaşmasında maraqlıdırlar və bu istiqamətdə işləri davam etdirirlər. Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu Azərbaycandan keçməklə Rusiyaya və Avropaya qədər uzanacaq. Hazırda yolun Rəşt-Astara hissəsində işlər davam edir.

H.Ruhani qeyd edib ki, Azərbaycan İran ilə yaxın qonşu və dost dövlətdir. Hər iki ölkə arasında nəqliyyat, enerji, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üzrə əməkdaşlıq əlaqələri ildən-ilə inkişaf edir.



# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Neftçalada vətəndaşların müraciətlərini dinləyib

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, noyabrın 29-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Neftçalada vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Neftçala Rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyev ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda komitə sədri Mübariz Qurbanlı Neftçala, Şirvan, Hacıqabul, Salyan və Biləsuvar rayonlarının sakinlərinin müraciətlərini dinləyib.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, dini icmaların dövlət qeydiyyatı, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri, Quran kurslarının təşkil edilməsi, məscidlərin dini təyinatlı kitablarla təminatı və digər məsələlərlə bağlı müraciət ediblər. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Piter Teys: "AZƏRTAC-ın beynəlxalq media məkanında artan rolunun şahidiyik"

**AZƏRTAC Azərbaycan həqiqətlərinin, Dağlıq Qarabağ münaqişəsi və ölkənin bütün sahələri haqqında məlumatların dünyaya çatdırılmasında böyük işlər görür. Agentliyin beynəlxalq media məkanında artan rolunun, ölkədən xaricdə fəaliyyətinin genişlənməsinin biz də şahidiyik.**



Bu fikirləri amerikalı jurnalist, politoloq Piter Teys AZƏRTAC-ın baş direktoru Aslan Aslanov ilə görüşdə deyib. Jurnalist Azərbaycanda olduğu iki ay ərzində ölkənin qədim tarixi, mədəniyyəti, bir sıra regionları ilə yaxından tanışlıq imkanı qazandığını söyləyib.

Baş direktor qeyd edib ki, Azərbaycan haqqında məlumatların dünyada yayılması istiqamətində mütəmadi iş aparan AZƏRTAC tərəfdaşları ilə xəbər mübadiləsi həyata keçirir, qlobal informasiya resurslarının imkanlarından istifadə edir. Agentliyin hazırda Dünya Xəbər Agentlikləri Konqresi (NAWC) və Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına (OANA) sədrlik etdiyi, bunun dünyanın 100-dən çox agentliyi ilə əlaqələr yaradılmasına yol açdığı diqqətə çatdırılıb. Piter Teysin AZƏRTACilə uzun müddətdir əməkdaşlıq etdiyini deyən baş direktor onun yazılarını Azərbaycan haqqında obyektiv məlumatların daha geniş auditoriyaya çatdırılması işinə böyük töhfə kimi dəyərləndirib. Piter Teys Azərbaycanı yaxından öyrənmək üçün ona yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib. O, Naxçıvana səfər etdiyini, orada infrastrukturun inkişafına şahidi olduğunu, Tərtərdə dövlətin məcburi köçkünlər üçün yüksək şərait yaratdığını deyib. "Səfərimi başa vurduqdan sonra ölkənizin inkişafı, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın işğal olunmuş torpaqları haqqında məqalələr dərc edəcəyəm. Azərbaycana səfərimin əsas məqsədi də bu münaqişəni daha ətraflı araşdırmaqdır", - deyə Piter Teys bildirib. Amerikalı politoloq tezliklə "Azərbaycanın xarici siyasəti. Dünyada sülh və əmin-amanlığa töhfə" adlı kitabının çapdan çıxacağını, orada Azərbaycanın beynəlxalq aləmdə yeri, ölkənin, medianın və həmçinin AZƏRTAC-ın sülh və sabitliyə töhfələri haqqında geniş məlumatların əks olunacağını deyib. O, AZƏRTAC ilə birgə gələcəkdə Dağlıq Qarabağ münaqişəsi və digər sahələr üzrə videoların hazırlanıb ingilis və ispan dillərində yaymağın mümkünlüyünü də söyləyib.

Görüşdə amerikalı jurnalistin və AZƏRTAC-ın birgə layihələr həyata keçirməsi, müasir medianın aktual problemləri, Azərbaycanın keçdiyi inkişaf yolu ətrafında fikir mübadiləsi aparılıb.

# Çin səfiri: "Azərbaycan Avropanı Asiya ilə bağlayan mühüm nəqliyyat qovşağıdır"

*Çin Kommunist Partiyasının sonuncu, XIX qurultayı dünya kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Hər hansı ölkədə keçirilən siyasi toplantıların heç də hər biri bu qədər böyük marağa səbəb olmur. Dünyanın ən böyük dövlətlərindən biri olan Çinin iqtisadiyyatı ÜDM-in illik həcminə görə dünyada ikinci yeri tutur. Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfiri Vey Tszinxua AZƏRTAC-a eksklüziv müsahibəsində Çin kommunistlərinin qurultayının yekunları, qarşıya qoyulan hədəflər, müxtəlif sahələrdə Çin-Azərbaycan əlaqələrinin inkişaf perspektivləri, habelə iki ölkənin KİV-ləri arasında əməkdaşlıq barədə danışıb.*



### Çin spesifikalı sosializm uzunmüddətli səylərdən sonra "yeni dövr"ə qədəm qoyub

*-Cənab səfir, Çin Kommunist Partiyasının XIX qurultayında yeni bir ifadə səsləndi: "Çin spesifikalı sosializm yeni dövrə qədəm qoyub". "Yeni dövr"ün xüsusiyyətləri nədən ibarətdir, Çin öz qarşısına hansı konkret hədəflər qoyub?*

-Çin Kommunist Partiyasının baş katibi Si Cinpin partiyanın XIX qurultayındakı məruzəsində bəyan edib ki, Çin spesifikalı sosializm uzunmüddətli səylərdən sonra "yeni dövr"ə qədəm qoyub. Bu, Çinin inkişafı üçün yeni tarixi mövqedir. Çin spesifikalı sosializmin "yeni dövr"ünün xüsusiyyətləri əsasən aşağıdakı üç aspektdə əks olunub: birincisi, Çin spesifikalı sosializm inkişafın yeni mərhələsinə qədəm qoyub. ÇKP-nin XVIII qurultayından sonra Çin islahatlar keçirilməsi və aşkarlıq məsələsində tarixi uğurlar qazanıb, partiyanın və dövlətin fəaliyyətində tarixi dəyişikliklə baş verib. İkincisi, Çin cəmiyyətinin əsas ziddiyyətində dəyişikliklər baş verib. Hazırda xalqın daha gözəl yaşamağa daim artan tələbatı ilə inkişafın qeyri-müntəzəmliyi və natamamlığı arasında mövcud ziddiyyət insanların artan maddi və mədəni ehtiyacları ilə geridə qalan ictimai istehsal arasında ziddiyyəti əvəzləyib. Üçüncüsü, Çin beynəlxalq arenada baş verən yeni dəyişikliklərlə üzləşib. Hazırda dünyada möhtəşəm inkişaf dövrü, böyük dəyişikliklər və ciddi yenidənqurma dövrü yaşanır, xarici şərait Çinin inkişafı baxımından daha da mürəkkəbləşib. Xarici aləmlə Çinin qarşılıqlı bağlılığı və interaktivliyi günbəgün güclənir. Çin inamla dünya arenasının mərkəzinə çıxır. ÇKP-nin XIX qurultayı öz qarşısına böyük bir məsələ - hərtərəfli modernləşdirilmiş sosializm dövləti qurmaq məsələsi qoyub. 2020-ci ilədək Çin orta təminatlı cəmiyyət quruculuğunu tam başa çatdıracaq, 2020-2035-ci illərdə sosial modernləşmə həyata keçirəcək, daha sonra - 2035-ci ildən əsrin ortalarına qədər növbəti 15 il ərzində zəngin və qüdrətli, demokratik və sivilizasiyalı, harmonik, gözəl və modernləşdirilmiş sosialist dövlətinə çevriləcək.

### Çinin inkişaf etməkdə olan ən böyük ölkə kimi beynəlxalq statusu dəyişməz qalır

*-ÇKP-nin XIX qurultayına məruzədə Çin cəmiyyətinin əsas ziddiyyətinin dəyişməsi şərh edilib. Belə bir qərar qəbul olunması nəyə əsaslanır? Bu o deməkdirmi ki, Çin artıq inkişaf etmiş ölkəyə çevrilib?*

-1956-cı ildə ÇKP-nin VIII qurultayında bildirilmişdi ki, Çin cəmiyyətində əsas ziddiyyət insanların daim artan maddi və mədəni ehtiyacları ilə geridə qalan ictimai istehsal arasında ziddiyyətdir. Bu ifadə 60 ildən çoxdur ki, mövcuddur. Partiyanın XIX qurultayına məruzədə bu məsələyə yenidən nəzər salınıb və bəyan edilib ki, Çin cəmiyyətinin əsas ziddiyyəti xalqın daha yaxşı yaşamağa daim artan tələbatı ilə inkişafın qeyri-müntəzəmliyi və natamamlığı arasında mövcud ziddiyyətdir. Çin Kommunist Partiyası tərəfindən tarixin və reallığın, nəzəriyyənin və praktikanın, daxili və beynəlxalq şəraitin kompleks şəkildə qiymətləndirilməsi yolu ilə seçdiyi bu düzgün yanaşma üç arqumentə əsaslanır.

Əvvələn, 40 illik islahatlar və aşkarlıq siyasətindən sonra Çində məhsuldarlıq əhəmiyyətli dərəcədə artıb. Ölkə bir sıra aspektlərə görə dünyanın lider ölkələri sırasına daxil olub. "Geridə qalmış ictimai istehsal" ifadəsi Çinin inkişafının indiki vəziyyətini real əks etdirmirdi. Məsələn, ÜDM-in həcminə görə Çin dalbadal 6 il ərzində dünyada ikinci yeri tutur. Xarici ticarətin, xarici investisiyaların ümumi həcmi, istehsalın əlavə dəyəri kimi göstəricilər üzrə Çin dünyanın aparıcı ölkələrindən biridir.

İkincisi, Çin xalqının həyat səviyyəsinin nəzərəçarpacaq dərəcədə yaxşılaşması müşahidə olunur, həm daha yüksək maddi və mənəvi həyata, həm də demokratiya, qanunçuluq, bərabərlik, ədalət, təhlükəsizlik və ekologiya kimi dəyərlərə tələbat artır. "Maddi və mədəni ehtiyaclar" anlayışı xalqın arzu və tələblərini tam əks etdirə bilmir.

Üçüncüsü, Çin xalqının tələbatının təmin edilməsinə təsir göstərən amillər çoxdur. Əsas problem inkişafın qeyri-müntəzəmliyi və natamamlığı problemidir, regionlarda, həmçinin sosial iqtisadiyyatın bir sıra sahələrində tarazlığın və inkişafın lazımi səviyyədə olmaması müşahidə edilir.

Obyektiv vəziyyət belədir ki, Çinin şərqində bəzi inkişaf etmiş şəhərlərdə həyat səviyyəsi Qərbin inkişaf etmiş ölkələrində olduğu dərəcədə, hətta bəzi göstəricilərə görə onlardan da üstündür. Kənd yerlərində və qərb rayonlarında isə iqtisadi və sosial inkişaf əvvəlki kimi nisbətən aşağıdır. Adekvat qidalanma və geyim probleminin həll edilməsinə baxmayaraq, gəlirlərin bölgüsündə əvvəlki kəskin fərqlər qalır, on milyonlarla insan yoxsulluq vəziyyətindədir. Əhalinin hər nəfərinə düşən ÜDM dünya üzrə orta səviyyədədir. Nəticədə, Çinin əsas reallığı dəyişməyib, Çin yenə də əvvəlki kimi, sosializmin başlanğıc mərhələsindədir və hələ uzun müddət bu mərhələdə qalacaq. Çinin inkişaf etməkdə olan ən böyük ölkə kimi beynəlxalq statusu dəyişməz qalır.

### Biz bütün ölkələrin xalqlarını səyləri birləşdirərək "Vahid taleli insan cəmiyyəti" qurmağa çağırırıq

*-ÇKP-nin XIX qurultayında qəbul edilmiş qərarlar müasir Çin ilə dünya ölkələri arasında münasibətlərin və əməkdaşlığın perspektivinə necə təsir göstərəcək?*

Çin spesifikalı böyük dövlətin diplomatiyasının hərtərəfli inkişafı Si Cinpinin yeni dövrün Çin spesifikalı sosializmi barədə ideyasının mühüm tərkib hissəsidir. ÇKP-nin XIX qurultayı "dünya xəritəsinə üz tutmuş" qurultaydır. Baş katib Si Cinpin qurultayda Çin spesifikalı böyük dövlətin diplomatiyasının yuxarı səviyyəsini layihələşdirib. O deyib: "Çin spesifikalı böyük dövlət diplomatiyası yeni tipli beynəlxalq münasibətlər qurulmasına və "Vahid taleli insan cəmiyyəti"nin formalaşmasına kömək etməlidir. Bu, Çinin "yeni dövr"də öz diplomatiyasında rəhbər tutduğu ümumi məqsədi xeyli dərəcədə əks etdirir, başqa ölkələrlə birlikdə bizim nail olmağa çalışdığımız ümumi istiqamətə işıq salır. Çin spesifikalı diplomatiya Si Cinpinin yeni dövrün Çin spesifikalı sosializmi haqqında ideyasına əsaslanaraq sülh, inkişaf, əməkdaşlıq, ümumi rifah bayrağını uca tutacaq. Biz dinc yanaşı yaşamağın beş prinsipi əsasında bütün ölkələrlə dostluğu və əməkdaşlığı dönmədən və qətiyyətlə inkişaf etdirəcək, qarşılıqlı hörmətə, bərabərliyə, ədalətə, əməkdaşlığa və ümumi rifaha əsaslanan yeni tipli beynəlxalq münasibətlərin formalaşmasını stimullaşdıracağıq. Biz bütün ölkələrin xalqlarını səyləri birləşdirərək "Vahid taleli insan cəmiyyəti" qurmağa, uzunmüddətli sülh, ümumi təhlükəsizlik, birgə firavanlıq, aşkarlıq və inklüzivlik bərqərar olmuş təmiz və gözəl dünya yaratmağa çağırırıq.

### Çin iqtisadiyyatı sürətli artım dövründən keyfiyyətcə inkişaf mərhələsinə keçib

*-Son illərdə Çində sürətli iqtisadi inkişaf müşahidə olunur. Dünya maliyyə böhranı fonunda Çin ölkə iqtisadiyyatının sürətli və davamlı inkişafını dəstəkləmək üçün nə kimi iri islahatlar və tədbirlər həyata keçirməyə hazırlaşır?*

-Beynəlxalq vəziyyətin mürəkkəbləşməsi və dünya iqtisadiyyatının tənəzzülü ilə üzləşən Çin ölkə iqtisadiyyatını yeni, normal vəziyyətə istiqamətləndirir və bununla da qlobal iqtisadiyyatın sabitliyi və artımı üçün güclü impulsu təmin edir. 2013-2016-cı illərdə Çində ÜDM orta hesabla 7,2 faiz artıb, bu isə dünya iqtisadiyyatının 30 faizdən çox artmasına şərait yaradıb. Hazırda Çin iqtisadiyyatı düzgün istiqamətdə durmadan inkişaf edir, 2017-ci ildə istehsalın ümumi həcmi 12 trilyon ABŞ dollarına çatacaq və dünyada ikinci yerdə möhkəmlənəcək.

Çin iqtisadiyyatı sürətli artım dövründən keyfiyyətcə inkişaf mərhələsinə keçib. Hazırda Çin inkişafın transformasiyası, iqtisadiyyatın strukturunun optimallaşdırılması və artım üçün stimulun dəyişməsi mərhələsindədir. Modernləşdirilmiş iqtisadi sistem yaradılması ölkəmizin inkişafının strateji hədəflərinə nail olmaq üçün təxirəsalınmaz vəzifədir.

Çin bu strateji hədəfə çatmaq üçün təklif sahəsində struktur islahatlarını dərinləşdirəcək, innovasiyalı ölkə yaradılmasını sürətləndirəcək, kənd rayonlarının inkişafı strategiyasını, regionların uzlaşdırılmış inkişaf strategiyasını həyata keçirəcək, sosialist iqtisadiyyatı sistemini sürətlə təkmilləşdirəcək və hərtərəfli aşkarlığın yeni arxitektonikasının formalaşmasını stimullaşdıracaq. Çin iqtisadiyyatının inkişafı dünyanın bütün ölkələri üçün daha geniş bazar təmin edəcək, daha çox kapital təqdim edəcək, məhsulları zənginləşdirəcək və əməkdaşlıq üçün daha qiymətli imkanlar yaradacaq. Dünyanın bir sıra ölkələri ilə Çinin interaktiv inkişafı qlobal iqtisadi inkişafın daha çox tarazlaşmasını təmin edəcək.

### "Bir kəmər və bir yol" təşəbbüsünün partiyanın nizamnaməsinə daxil edilməsi tərəflərə bu işi birgə həyata keçirmək imkanı verəcək

*-Çin Kommunist Partiyasının XIX qurultayında "Bir kəmər və bir yol" birgə tikinti təşəbbüsü partiyanın nizamnaməsinə daxil edilib. ÇKP-nin qəbul etdiyi bu qərar sonrakı mərhələlərdə "Bir kəmər və bir yol" quruculuğunun sürətlənməsinə necə təsir göstərəcək?*

-XIX qurultayın müvafiq qətnamə və qərarları bəşəriyyətin siyasi sivilizasiyasını Çin müdrikliyi ilə zənginləşdirib, müasir beynəlxalq münasibətlərə Çin konsepsiyaları daxil edib, Çin əməkdaşlıq və ümumi rifah üçün imkanlar yaradıb. Baş katib Si Cinpin öz məruzəsində vurğulayıb ki, "Bir kəmər və bir yol" təşəbbüsünün reallaşmasına əsaslanaraq bundan sonra da "Birgə məsləhətləşmələr, birgə quruculuq və birgə istifadə" prinsipini rəhbər tutaraq xaricdən öyrənməyə və ölkə hüdudlarından kənara çıxmağa eyni dərəcədə diqqət yetirmək, innovasiya potensialı sahəsində aşkarlığı və əməkdaşlığı genişləndirmək, quruda və dənizdə, Çində və xaricdə, şərq və qərb istiqamətlərində qarşılıqlı faydaya əsaslanan, tərəflərin qarşılıqlı fəaliyyəti ilə fərqlənən aşkarlıq arxitektonikasını formalaşdırmaq lazımdır. ÇKP-nin XIX qurultayında qəbul edilmiş "Çin Kommunist Partiyasının nizamnaməsi (düzəliş) haqqında" Qətnamədə açıq-aydın göstərilir ki, "Bir kəmər və bir yol" təşəbbüsünün inkişaf etdirilməsi vəzifəsi partiyanın nizamnaməsinə daxil edilib. Bu, Çinin ÇKP-nin rəhbərliyi altında "Bir kəmər və bir yol" çərçivəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmək qətiyyətini və əzmini tam əks etdirir və Çinin dünyanın ümumi inkişafına töhfə verməkdə davam edəcəyindən xəbər verir.

"Bir kəmər və bir yol" təşəbbüsünü Sədr Si Cinpin 2013-cü ildə irəli sürüb. "Bir kəmər və bir yol" quruculuğu işləri tam sürətlə davam edir, səmərəli nəticələr əldə edilib. Bu təşəbbüs beynəlxalq birlik tərəfindən də tanınır və dəstəklənir, iştirakçı ölkələrin sayı getgedə artır.

"Bir kəmər və bir yol" təşəbbüsünün partiyanın nizamnaməsinə daxil edilməsi tərəflərə bu işi birgə həyata keçirmək imkanı verəcək, yeni tipli beynəlxalq münasibətlər qurulmasına və "Vahid taleli insan cəmiyyəti"nin formalaşmasına kömək edəcək. Biz hesab edirik ki, "Bir kəmər və bir yol" təşəbbüsünün fasiləsiz inkişaf etdirilməsi həm Çinin aşkarlığı üçün böyük imkanlar açacaq, həm də bütün ölkələrin və dünya iqtisadiyyatının inkişafı üçün daha böyük imkanlar yaradacaq.

### Çin Azərbaycanın Avropanı Asiya ilə bağlayan mühüm nəqliyyat qovşağı kimi coğrafi üstünlüklərini yüksək qiymətləndirir

*-Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmir yol xətti istifadəyə verilib. Bu dəmir yolu Avropa ilə Asiya arasında ən qısa marşrutdur və yüklərin Asiyadan Avropaya, xüsusən Cənubi Avropaya fasiləsiz daşınmasını təmin edəcək. Çin bu dəmir yolunun perspektivlərini necə qiymətləndirir? Bakı-Tbilisi-Qars dəmir yolu həm də Transxəzər nəqliyyat marşrutunun tərkib hissəsidir. Siz "Bir kəmər və bir yol" quruculuğunda Transxəzər marşrutunun rolunu necə qiymətləndirirsiniz?*

-Bu il oktyabrın 30-da Prezident İlham Əliyev və bir sıra ölkələrin liderləri Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılışını etdilər. Bu tarixi məqamın şahidi olmaq xoşbəxtliyi mənə də nəsib olub. Prezident İlham Əliyev açılış mərasimdəki çıxışında dedi ki, Bakı-Tbilisi-Qars marşrutu Avropa ilə Asiyanı birləşdirən ən qısa və etibarlı marşrutdur və bununla yanaşı, Böyük İpək Yolunun bərpasına Azərbaycanın mühüm töhfəsidir. Çin regionda daşımaların sadələşdirilməsinə şərait yaradan bütün layihələri alqışlayır və Azərbaycanın Avropanı Asiya ilə bağlayan mühüm nəqliyyat qovşağı kimi coğrafi üstünlüklərini yüksək qiymətləndirir. Biz Bakı-Tbilisi-Qars dəmir yolu ilə konteyner yükdaşımaları imkanını fəal surətdə araşdıracaq və Çin müəssisələri ilə Azərbaycan tərəfi arasında nəqliyyat və logistika sahələrində beynəlxalq əməkdaşlığı təşviq edəcəyik. 2017-ci ilin fevral ayında Azərbaycan hökuməti Çinin fəal dəstəyi ilə Pekində Bakı-Tbilisi-Qars dəmir yolunun və Transxəzər nəqliyyat dəhlizinin uğurlu təqdimatını keçirdi. Çin tərəfi Azərbaycanla əməkdaşlığa, Transxəzər nəqliyyat dəhlizi ilə daşımaların xərclərinin azaldılması məsələlərini müzakirə etməyə, Çin, Azərbaycan və bu marşrut boyunca yerləşən digər ölkələr arasında qarşılıqlı əlaqələrin səviyyəsini artırmaq üçün əlverişli şərait yaratmağa hazırdır.

### Turizm sahəsində əməkdaşlıq üçün həm Çinin, həm də Azərbaycanın böyük potensialı var

*-Cənab səfir, Sizin fikrinizcə, hansı praqmatik sahələrdə Çin ilə Azərbaycan arasında əməkdaşlığı inkişaf etdirmək üçün böyük perspektiv imkanlar var? Çində Azərbaycanı hansı yolla daha səmərəli təbliğ etmək və çinli turistləri Azərbaycana cəlb etmək olar?*

-Qlobal iqtisadi tənəzzül fonunda Azərbaycan hökuməti öz iqtisadi islahatlarını dərinləşdirməkdə davam edir, iqtisadiyyatın şaxələndirilməsini dəstəkləyir, qeyri-neft sektorunun inkişafına şərait yaradır, investisiya mühitini daim yaxşılaşdırır. Çin müəssisələri iqtisadi quruculuqda Azərbaycan tərəfi ilə sıx əməkdaşlıq etməyə, neft və qaz, infrastruktur, istehsal gücləri və avadanlıq, azad ticarət zonaları, sənaye və kənd təsərrüfatı parklarının tikintisi, daşımalar və logistika, bərpa olunan enerji mənbələri, informasiya və rabitə, yüksək texnoloji sənaye sahələri, turizm və digər sahələrdə hərtərəfli qarşılıqlı əməkdaşlığı həyata keçirməyə hazırdırlar. Ümid edirik ki, Azərbaycanın əlverişli investisiya siyasəti sayəsində bu ölkədə sərmayə qoymağa və onunla əməkdaşlığa cəlb edilən Çin şirkətlərinin sayı daha da artacaq.

Azərbaycan Qədim İpək Yolu marşrutu boyunca yerləşən mühüm ölkələrdən biridir. Azərbaycanın zəngin turizm ehtiyatları var. Yaxın beş ildə xarici ölkələrə səfər edəcək çinli turistlərin sayı 500 milyona çatacaq. Turizm sahəsində əməkdaşlıq üçün hər iki tərəf böyük potensiala malikdir. Son illərdə Azərbaycana maraq göstərən çinli turistlərin sayı artır, onların Azərbaycana səfər etmək arzusu güclənir. Şopinqə diqqəti artırmaq, təbii qoruqlara turlar və humanitar tədbirlər təşkil etmək, qonşu ölkələrlə birlikdə həmin ölkələrə xüsusi regional turlar keçirmək tövsiyə olunur. Çinin səriştəli turizm müəssisələri ilə birlikdə turizm bazarını reklam etmək və inkişaf etdirmək, klassik turizm brendi yaratmaq olar.

### AZƏRTAC Çin mədəniyyətinin və Çin-Azərbaycan dostluğunun təbliğinə mühüm töhfə verir

*-AZƏRTAC və Sinxua informasiya agentlikləri kütləvi informasiya vasitələrinin ikitərəfli və beynəlxalq mexanizmləri çərçivəsində, xüsusən Asiya-Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA) çərçivəsində sıx əməkdaşlıq edirlər. AZƏRTAC Qafqazda çin dilində xəbərlər dərc edən yeganə informasiya agentliyidir. Sizcə, iki ölkənin KİV-ləri arasında əməkdaşlığı genişləndirmək üçün daha hansı tədbirləri görmək olar?*

-Çinin və Azərbaycanın kütləvi informasiya vasitələri "Bir kəmər və bir yol" təşəbbüsünün həyata keçirilməsində çox böyük rol oynayırlar. Çin və Azərbaycan KİV-ləri iki ölkə arasında münasibətlərin inkişafını işıqlandırır, təsbit edir və buna şərait yaradırlar.

AZƏRTAC agentliyi uzun illərdir ki, Çin-Azərbaycan münasibətlərinin inkişafına, Çin mədəniyyətinin və Çin-Azərbaycan dostluğunun təbliğinə mühüm töhfə verir. Mən AZƏRTAC-ın sadiq oxucusu kimi bu agentliyə səmimi təşəkkürümü bildirmək istərdim. Ümid edirik ki, AZƏRTAC ilə Sinxua informasiya agentliyi arasında səmərəli əməkdaşlıq iki xalq və iki ölkə arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmlənməsinə daha çox töhfə verəcək.

Son illərdə Çin KİV-ləri Azərbaycana daha çox diqqət yetirir. 2017-ci ildə Çin Mərkəzi Televiziya Stansiyasının (CCTV) beynəlxalq şöbəsinin çəkiliş qrupu Azərbaycanda səfərdə olub və bir ay müddətində çəkilişlər aparıb, müsahibələr alıb. Heyluntszyan televiziyasının Azərbaycanda keçirdiyi televiziya həftəsi uğurlu olub. AZƏRTAC informasiya agentliyinin jurnalisti ÇKP-nin XIX qurultayının işıqlandırılmasında iştirak etməyə dəvət olunub. Bu cür mübadilələr iki ölkənin xalqları arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, "Bir kəmər və bir yol" təşəbbüsünün uğurlu nəticələri barədə hər iki xalqı məlumatlandırmağa şərait yaradıb.

Praqmatik əməkdaşlıq media mübadiləsinin həyatverici qüvvəsidir. Çinin və Azərbaycanın kütləvi informasiya vasitələri birgə çəkilişlər, müştərək proqramlar, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və işçilərin ixtisas səviyyəsinin artırılması kimi sahələrdə əməkdaşlığı dərinləşdirə bilərlər. Ümidvarıq ki, hər iki ölkənin kütləvi informasiya vasitələri bu məsələlərə daha geniş mövqedən yanaşacaq, novator metodlarını tətbiq edəcək və əməkdaşlığın səviyyəsini yüksəldəcək. Onlar bütün sahələrdə dostcasına mübadiləyə köməyi davam etdirəcək və Çin-Azərbaycan münasibətlərinin inkişafına öz töhfələrini verəcəklər.

**-Müsahibə üçün çox sağ olun.**

## Gənclər Naxçıvanın tanıdılması ilə bağlı görüləcək işlər barədə fikir mübadiləsi aparıblar



Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının inzibati binasında "Muxtar respublikanı necə tanıdırıq?" mövzusunda təşkil edilən "dəyirmi masa"da fəal gənclər doğma yurdumuzun təbliği ilə bağlı görüləcək işlər barədə fikir mübadiləsi aparıblar. AZƏRTAC xəbər verir ki, tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev çıxış edərək, turizmin insanların daim maraqlandığı sahələrdən biri olduğunu bildirib. Buna görə də son dövrlərdə çoxsaylı turizm sahələri inkişaf etdirilməkdədir. Turizm səfalı təbiət, tarix, mədəniyyət, qonaqpərvərlik və təhlükəsizlik amilləri üzərində qurulur. Hansı ki, sadaladığımız amillər artıq muxtar respublikada bu sahənin davamlı inkişafı baxımından əsl təməl rolunu oynayır. Məmməd Babayev gənclərin Naxçıvanın turizm imkanlarının tanıdılmasında fəal olmalarının əhəmiyyətini qeyd edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli çıxış edərək bildirib ki, muxtar respublika böyük turizm potensialına malikdir. Qədim tarixə, zəngin mədəniyyətə, gözəl təbiətə malik olması müasir dövrdə Naxçıvanı turistlər üçün daha cəlbedici edir. Bu gün qədim diyarın turizm potensialının tanıdılmasında gənclərin üzərinə böyük vəzifə düşür.

Gənclərin virtual məkanın imkanlarından daha geniş istifadə etməsinin vacibliyini vurğulayan Tahir Məmmədli deyib ki, bu gün sosial şəbəkələr çox əhatəli şəkildə gənclərin həyatına sirayət etməyə başlayıb. Müxtəlif internet saytları muxtar respublikanın turizm imkanlarını təbliğ etmək baxımından çox faydalı hesab edilir. Getdikcə bu məqsədlə sosial şəbəkələrə qoşulan gənclərimizin sayı daha da artır, yeni-yeni qruplar yaradılır. Çalışmaq lazımdır ki, hər bir gənc bu işdə fəal olsun, yaşadığı bölgənin gəzməli-görməli yerlərini tanıtsın.

"Dəyirmi masa"da Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin turizm şöbəsinin müdiri Əkbər Novruzov qeyd edib ki, muxtar respublikanın hər yerində, hətta ən ucqar dağ kəndlərində belə, əlverişli infrastrukturun qurulması Naxçıvanda turizmin hərtərəfli inkişafına şərait yaradıb. Bu mənada, qədim diyarda kənd yaşıl turizmi üçün də geniş imkanlar var. Sosial şəbəkələrdə Naxçıvanın turizm potensialının təbliğ edilməsinin əhəmiyyətini diqqətə çatdıran Əkbər Novruzov vurğulayıb ki, elektron resurs istifadəçiləri hazırda dünyada baş verən prosesləri, əsasən virtual məkanın imkanlarından yararlanmaqla öyrənirlər. Digər əcnəbi ölkə vətəndaşları da ölkəmiz və muxtar respublika haqqında müəyyən məlumatlara belə resursların vasitəçiliyi ilə malik olurlar. Bu gün muxtar respublikamızla bağlı həqiqətlərin sosial şəbəkələrdə təbliği aparılır, regionun müasir həyatı ilə bağlı məlumatlar öz əksini tapır. Lakin bu sahədə görəcəyimiz işlər hələ çoxdur. Sonra gənclər Naxçıvanın turizm potensialının təbliği ilə əlaqədar diskussiyalar aparıblar.

# Putin Azərbaycan Prezidentinə verdiyi bütün vədləri yerinə yetirəcək

*Mübariz Əhmədoğlu: "Dağlıq Qarabağ tənzimlənməsi Putin planı üzrə mərhələli variantda reallaşdırılır"*



"Rəsmi Yerevan özünə xas metodla Rusiya xarici işlər naziri Sergey Lavrovun regiona gətirdiyi Putin planını açıqladı: Dağlıq Qarabağ tənzimlənməsi mərhələli variantda reallaşdırılır. Dağlıq Qarabağ tənzimlənməsinə dair Putin planında məsələlər iki böyük qrupda cəmləşdirilmişdir". Bu fikirləri Siyasi Texnologiyalar və İnnovasiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu bildirib. O, bu qrupu 3 tərkib hissəyə bölüb və hesab edir ki, ətraf rayonlardan 5-i və Laçın rayonunun bir qisim kəndləri, ilkin olaraq Azərbaycana qaytarılır. Sonra isə Dağlıq Qarabağ ermənilərinə müvəqqəti status verilir. Status məsələsi ATƏT-də qeydə alınır. "Müvəqqəti statusda məqsəd Dağlıq Qarabağ azərbaycanlılarının Dağlıq Qarabağa qayıtmasına şərait yaratmaqdır"-deyə qeyd edib.

M.Əhmədoğlu Ermənistan cəmiyyətini sakitləşdirmək üçün tədbirlərin reallaşdırılacağını da bildirib. Belə ki, bunu rəsmi Yerevan özü Putindən xahiş edib:

**a)** Lazım gələcəyi təqdirdə, KTMT Ermənistanın daxilinə qoşun yeridə bilər.

**b)** Aİ ilə Ermənistan arasında "Çərçivə sazişi"nin imzalanmasına RF-nin maneçilik etməməsi də Ermənistan cəmiyyətinin sakitləşdirici tədbirlər siyahısındadır.

**c)** Ermənistan ABŞ-la da bir neçə birgə layihə reallaşdıra bilər

**I.** İkinci qrupa aid məsələləri də şərh edən politoloqa görə, Laçının qalan hissəsinin və Kəlbəcərin Azərbaycana qaytarılması və Laçın dəhlizinin texniki parametrləri razılaşdırılır.

**II.** Dağlıq Qarabağın statusunun müəyyən olunması istiqamətində Dağlıq Qarabağ azərbaycanlıları və erməniləri arasında məqsədyönlü layihələr reallaşdırılır.

**III.** Dağlıq Qarabağ azərbaycanlıları və erməniləri arasında aparılan sosioloji tədqiqatlar nəticəsində Dağlıq Qarabağın yekun statusunun müəyyənləşməsinin vaxtı təyin edilir.

M.Əhmədoğlu deyib: "Aİ sülhməramlı missiyanı reallaşdıracaq dövlətlərin tərkibini müəyyənləşdirib və artıq bəzi Balkan ölkələrində sülhməramlılar hazırlaşdırılır. Deməli, Dağlıq Qarabağ tənzimlənməsində beynəlxalq güclərin siyasi iradəsi ortalıqdadır".

"Ermənistanın Rusiyadan istədiyi yeganə zəmanət ərazilər Azərbaycana qaytarıldıqdan sonra Dağlıq Qarabağın statusunun referendumla müəyyən edilməsinə Azərbaycanın maneəsini neytrallaşdırmaqdır"-deyə qeyd edən Əhmədoğlu RF-nin Ermənistana belə zəmanət vermədiyini bildirib. Belə ki, V.Putinin Dağlıq Qarabağ tənzimlənməsində məqsədyönlü və faydalı aktivləşməsi iki sehrli cümlədə özünü ehtiva edir:

**I.** Putinin Azərbaycana göndərdiyi S.Lavrov: "Putin Azərbaycan Prezidentinə verdiyi bütün vədləri yerinə yetirəcək".

**II.** Türkiyə prezidenti R.T.Ərdoğan RF prezidenti V.Putini Dağlıq Qarabağ münaqişəsini həll etmək gücündə olan yeganə lider adlandırdı. Başqa sözlə, Türkiyə rəhbərliyi Rusiyanın Dağlıq Qarabağ tənzimlənməsində Azərbaycanın xeyrinə olan mövqeyini öz adına çıxmamaq barədə öhdəlik götürdü.

Ermənistan yenilənmiş Sankt-Peterburq variantı üzrə Dağlıq Qarabağ tənzimlənməsini qəbul etmək istəmirdi, Kazan variantı üzrə tənzimlənməyə razılığını bildirmişdi. Görünür, V.Putin öz mövqeyini qəbul etdirməkdə israrlıdır. Çünki S.Sarkisyan dəfələrlə Putinin təkliflərini rədd edib. Putin bunların hamısının əvəzini çıxacaqdır. Ermənistanın Gürcüstana təzyiq variantını gündəliyə gətirməsi də V.Putinin mövqeyini dəyişməyəcəkdir.

*Rövşən NURƏDDİNOĞLU*



# YAP Qobustan rayon təşkilatı "Hərəyə bir ağac əkək" kampaniyasına start verib

Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının Qobustan Meşə Mühafizəsi və Bərpası Müəssisəsi ilə birlikdə partiyanın yaranmasının 25 illik yubileyi münasibətilə keçirdiyi "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində Cəngi kənd ərazisində 0,5 ha sahədə 350 badam tingi əkilmişdir. Bu kampaniyada təbiətin və ekoloji mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması istiqamətində çoxsaylı tədbirlər və layihələr, həyata keçirilir. Dövlət başçısı İlham Əliyevin diqqət ayırdığı sahələrdən biri kimi, yaşıllıq sahələrinin genişləndirilməsi işi Qobustan rayonunda da uğurla həyata keçirilir. Ağacəkmə kampaniyasında YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gulaliye, təşkilatın əməkdaşları, Yeni Azərbaycan Partiyasının fəalları, gənclər, Cəngi kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak edirdi.

Qeyd edək ki, Qobustan rayonunda "Hərəyə bir ağac əkək" kampaniyası üzrə tədbirlər plana uyğun olaraq davam etdiriləcək.

*RƏFİQƏ*

# Cenevrədə Beynəlxalq Miqrasiya Təşkilatı Şurasının 108-ci sessiyası keçirilir

***Noyabrın 28-də Cenevrə şəhərində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) Şurasının 108-ci sessiyası öz işinə başlayıb.***




Dövlət Miqrasiya Xidmətindən (DMX) AZƏRTAC-a bildiriblər ki, dekabrın 1-dək davam edəcək sessiyanın açılışında gündəliyə uyğun olaraq, əvvəlcə təşkilati məsələlərə baxılıb. Məsul şəxslərin seçilməsindən sonra quruma üzvlüklə bağlı müraciət edən Kuba Respublikası və Kuk Adalarının namizədliyi səsə qoyulub və yekdilliklə təşkilatın üzvü seçiliblər. Sonra müşahidəçi qismində təmsilçilik üçün müraciətlərə baxılıb. Küveyt Dövlətinin, bir sıra beynəlxalq təşkilatların, eləcə də qeyri-hökumət təşkilatlarının Beynəlxalq Miqrasiya Təşkilatı Şurasında müşahidəçi qismində iştirakı səsvermə yolu ilə təsdiqlənib. Sessiyada BMqT-nin baş direktoru Uilyam Leysi Svinq geniş hesabat məruzəsi ilə çıxış edib. Təşkilatın yaranması, fəaliyyəti barədə ətraflı məlumat verən baş direktor Beynəlxalq Miqrasiya Təşkilatı Şurasının 108-ci sessiyası çərçivəsində qlobal miqrasiya proseslərinin müxtəlif aspektlərini əhatə edən mövzuların müzakirə olunacağını deyib.

U.L.Svinq dünyada miqrasiya proseslərinin hazırkı vəziyyətini əks etdirən statistik rəqəmləri sessiya iştirakçılarının nəzərinə çatdırıb.

Sonra təhlükəsiz, nizamlı və tənzimlənən miqrasiya üzrə qlobal kompaktla bağlı BMT Baş Assambleyasının prezidenti Miroslav Layçak, BMT baş katibinin beynəlxalq miqrasiya üzrə xüsusi nümayəndəsi Luiza Arbur çıxış ediblər. Çıxış edənlər miqrasiya siyasəti və mexanizmlərinin daha da təkmilləşdirilməsi, təşkilatın fəaliyyətinin hazırkı durumu və perspektivləri barədə danışıblar.

Sessiya çərçivəsində "Miqrantların inteqrasiyasını və sosial vəhdəti təşviq edən innovativ tərəfdaşlıqlar vasitəsilə əməkdaşlıq", "Dünya Miqrasiya Hesabatı 2018: qloballaşan dünyada miqrasiyanı və mobilliyi (yerdəyişmə) anlamaq" və "Təhlükəsiz, nizamlı və tənzimlənən miqrasiyaya dair qlobal kompakt çərçivəsində miqrasiya və iqlim dəyişikliyi ilə bağlı məsələlərin həlli üçün imkanlar" mövzularında yüksək səviyyəli panellərin keçirilməsi planlaşdırılır. DMX-nin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Firudin Nəbiyev və Azərbaycan Respublikasının BMT-nin Cenevrədəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov sessiyada iştirak edirlər.

# Xanım jurnalistlər arasında müsabiqə: "Azərbaycanın maarifçi qadınları"

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və "Kaspi" qəzeti 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xanım jurnalistlər arasında fərdi jurnalist yazıları müsabiqəsini elan edir. Bilik Fondundan AZƏRTAC-a bildiriblər ki, "Azərbaycanın maarifçi qadınları" mövzusunda keçirilən müsabiqəyə yazıların qəbulu dekabrın 8-dən başlanır və 2018-ci il fevralın 8-də başa çatır.

Elan olunan günədək ən azı bir il müddətində kütləvi informasiya vasitələrində - qəzet, jurnal və informasiya agentliklərində fasiləsiz çalışan xanım jurnalistlər müsabiqəyə yazı verə bilərlər.

Müsabiqənin şərtlərinə görə, hər xanım jurnalistin Azərbaycan Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşməyən mətbuat orqanlarında (9-11 min işarə) həcmində dərc olunan yalnız bir yazısı qəbul ediləcək. Yazının sonunda "Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və "Kaspi" qəzetinin keçirdiyi müsabiqəyə təqdim etmək üçün" qeydi göstərilməlidir. İnformasiya agentliklərində çalışan jurnalistlər istisna olmaqla, digər jurnalistlər öz yazılarını yalnız işlədikləri mətbuat orqanlarında dərc etdirməlidirlər.

Mövzunun əhatə olunması, jurnalist araşdırması, əsaslandırma, informasiyalılıq səviyyəsi, yazının dil və üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti, ictimai maraqların müdafiəsi yazıların dəyərləndirilməsində meyar kimi götürülür. Yazılar on ballıq sistem üzrə qiymətləndirilir. Müsabiqədə ilk üç yerin qaliblərinə qiymətli hədiyyələr və pul mükafatı nəzərdə tutulub.

# 30 Noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür

***Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilmişdir.***



Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 Noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

Qeyd edək ki, informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi. Ölkəmiz haqqında dünyaya dolğun məlumatların çatdırılmasında xüsusi rola malik olan bu sahəyə Ulu Öndər Heydər Əliyevin ayırdığı diqqətin məntiqi nəticəsidir ki, Onun Sərəncamı ilə təsdiqlənən "İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya" qarşıya qoyulan məqsədlərə çatmaq üçün geniş yollar açmış oldu. Milli Strategiya rabitə və informasiya texnologiyaları sahəsində kompleks tədbirlərin həyata keçirilməsində, bu sahənin qanunvericilik bazasının gücləndirilməsində əhəmiyyətli rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyev ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı. Belə ki, Azərbaycan Prezidentinin 2005-ci il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" rabitə və informasiya texnologiyalarının geniş tətbiqinə yeni imkanlar açdı. Belə ki, bu sənəd ölkəmizin hər bir yerində rabitə və informasiya texnologiyalarının geniş yayılmasını təmin etmiş oldu. Azərbaycan Prezidentinin "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" 2007-ci il 6 mart tarixli Fərman isə İKT sektorunun inkişafına münbit zəmin yaratdı. Həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı Milli Strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da qısa müddətdə özünü doğrultdu.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti olaraq tarixə düşdü. Bu, Azərbaycanın elmi-texniki və iqtisadi qüdrətinin təntənəsi idi. İstismar müddəti 15 il olan "Azərspase-1" peyki Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionunu əhatə edir. Eyni zamanda, Azərbaycanın ilk telekommunikasiya peyki informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi ilə yanaşı, kommersiya xarakterli və gəlirli bir layihədir. Ekspertlərin qənaətinə görə, 2023-cü ildə Azərbaycanda İKT sektorundan əldə olunan gəlirlər neft gəlirlərini üstələyəcək.

Göründüyü kimi, Azərbaycan iqtisadi qüdrəti ilə seçildiyi kimi, innovativ texnologiyalardan istifadə imkanları ilə də fərqlənir. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər davamlı olaraq həyata keçirilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

## İndoneziyada torpaq sürüşməsi və daşqınlar azı 19 nəfərin həyatına son qoyub

İndoneziyanın Şərqi Yava əyalətində siklonun səbəb olduğu torpaq sürüşmələri və daşqınlar nəticəsində azı 19 nəfər həlak olub. AZƏRTAC Sinxua agentliyinə istinadla xəbər verir ki, onlardan 15-i torpaq sürüşmələri, 4-ü isə daşqınlar səbəbindən həyatını itirib. Regiona noyabrın 29-da çatan siklon Yava və Bali adalarının 28 yaşayış məntəqəsində torpaq sürüşməsi və daşqınlarla müşayiət olunub. Hazırda minlərlə evin su altında qaldığı bildirilir. Siklonun İndoneziyanı noyabrın 30-da tərk edəcəyi gözlənilir. Təbii fəlakətdən zərər çəkən bölgələrdə hərbçilərin, polislərin, xilasedicilərin və könüllülərin cəlb olunduğu axtarış-xilasetmə əməliyyatları davam edir.

## İran Bolqarıstan hökumətinin təyyarəsini hava məkanına buraxmayıb

İran Bolqarıstan hökumətinin təyyarəsini onun hava məkanına daxil olmağa az qalmış geri dönməyə vadar edib. Ər-Riyadda jurnalistlərə müsahibə verən Bolqarıstanın Baş nazirinin müavini və xarici işlər naziri Ekaterina Zaxariyeva bildirib ki, bütün icazələrin alınmasına baxmayaraq, İran tərəfi təyyarəni öz hava məkanına qoymayıb və təyyarə Türkiyəyə qayıdaraq İraq hava məkanından uçmaq üçün icazə alıb. Bolqarıstan Xarici İşlər Nazirliyi hadisə ilə əlaqədar İranın bu ölkədəki müvəqqəti işlər vəkilinə etiraz bildirib.

## Hava nəqliyyatı ilə 18,2 faiz çox sərnişin daşınıb

Bu ilin yanvar-oktyabr ayında hava nəqliyyatı ilə 2020,3 min və ya ötən ilin müvafiq dövrünə nisbətən 18,2 faiz çox sərnişin daşınıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, daşımaların 99,9 faizi dövlət, 0,1 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilib. Bu nəqliyyat növü ilə yükdaşıma 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz artaraq 136,7 min tona çatıb.

## Virtual reallıq eynəkləri ilə üzün bərpası əməliyyatı dünyada ilk dəfə Azərbaycanda aparılıb



Azərbaycan Tibb Universitetində professor Çingiz Rəhimovun rəhbərlik etdiyi alim və mütəxəssislər qrupu rekonstruktiv cərrahiyyədə ən müasir rəqəmli texnologiyaların istifadəsi metodları işləyib hazırlayır.

Universitetin mətbuat xidməti AZƏRTAC-a xəbər verir ki, Azərbaycan cərrahları həmin metodla dünya təcrübəsində ilk dəfə olaraq virtual reallıq eynəkləri ilə üzün bərpası əməliyyatı aparıblar.

Həmin metodika paralel olaraq ABŞ, Çin və digər ölkələrdə də sınaqdan çıxarılır. Yeni üsulun üstünlüyü ondan ibarətdir ki, cərrahi əməliyyatı daha dəqiq aparmağa, onun davametmə müddətini xeyli azaltmağa, toxumaların zədələnməsini minimuma endirməyə, eləcə də yüksək funksional və estetik nəticələrin əldə edilməsinə imkan verir.

## Azərbaycan dolması Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilə bilər



Dekabrın 4-dən 9-dək Cənubi Koreyanın Çecudo adasında Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitənin iclası keçiriləcək. İclas iştirakçıları populyar adətlərin və yaradıcılıq formalarının - ənənəvi mahnı, mərasim və bayramların UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsi üçün 34 yeni sifarişi müzakirə edəcəklər.

AZƏRTAC www.un.org saytına istinadla xəbər verir ki, Azərbaycan həmin sessiyada milli dolma xörəyinin hazırlanması reseptinin bu Siyahıya daxil edilməsi barədə müraciət edib. Qazaxıstan Qeyri-Maddi Mədəni İrs Siyahısına ənənəvi "Aşıq-aşıq" oyununun daxil olunmasını, Qırğızıstan isə at belində "Çövkən" folklor oyununun əbədiləşdirilməsini təklif edir. Tacikistan bu ölkənin populyar "Fələk" milli mahnılarını, Türkmənistan isə qədim "Küştdepdi" rəqsinin həmin Siyahıya daxil olunmasını istəyir.

Qeyri-Maddi Mədəni İrs Siyahısına nəsildən-nəslə keçən adətlər və yaradıcılıq formaları - şifahi ənənələr, ifaçılıq sənəti, sosial tədbirlər, bayram və mərasim adətləri, biliklər və təbiətlə, kainatla bağlı təsəvvürlər, habelə ənənəvi xalq sənəti texnikası daxil edilir.

# Sarkisyan rejiminin total saxtakarlığı

## "Yeni Ermənistan" hazırkı hakimiyyəti devirəcəyini bildirib

***Bəşər tarixi və siyasətin yaşanmış hadisələri göstərir ki, haqqını tələb edib hüquqlarını qorumağı bacaran toplunu və insanları uzun müddət kölə vəziyyətində saxlamaq olmur. Amma görünür, ötən ilin dekabrın 6-da Ermənistanda ölkənin idarəetmə quruluşunu dəyişmək üçün keçirilən referendumdan sonra işğalçı ölkənin prezidenti Serj Sarkisyan hələ ermənilələri çox illər kölə vəziyyətində saxlamaq istəyir. Ancaq erməni xalqı ölkənin prezident idarəetmə quruluşundan parlament idarəetməsinə keçməsini qəbul etməyərək, ardıcıl olaraq oturaq aksiyalar və mitinqlər keçirməyi davam etdirməkdədirlər.***



Bu günlərdə prezident Serj Sarkisyan sədri olduğu Ermənistan Respublikaçılar Partiyasının rəhbərliyi ilə görüş keçirib. Görüşdə müzakirə edilən əsas məsələ, ilk növbədə, hakimiyyətə loyal olan partiyalarla iqtidar bölgüsü barədə razılığa gəlmək imkanları olub. Bundan əvvəl isə, "Daşnaksütyun" hökumətlə birləşmə təklifini irəli sürüb. Bu partiyanın lideri Qrant Markaryan iqtidarla bir yerdə olmağı qərarlaşdırdığını bildirib.



İndi Ermənistan Respublikaçılar Partiyası özünə yeni koalisiya ortaqları axtarır. Partiyanın idarə heyətinin üzvü Haqik Minasyan prezident Serj Sarkisyanla görüşdən sonra bildirib: "Koalisiya ilə bağlı müzakirələr aparılır, amma hələlik, son qərar yoxdur. Respublikaçılar Partiyası həmişə müxtəlif formatda əməkdaşlığa hazır olub. Bu koalisiyamı olacaq, başqa formatmı, bunu indi deyə bilmərəm. Bu, yəqin ki, yaxın müddətdə dəqiqləşdiriləcək".

Erməni ekspertlər bildirirlər ki, koalisiya hökumətləri də Serj Sarkisyanı çətin ki, xilas edə. Çünki ölkənin qarşısına çıxan problemlər səbəbindən, bütövlükdə vəziyyətin acınacaqlı olduğu açıq etiraf edilir. Ermənistanda sosial-iqtisadi durumun getdikcə pisləşməsi fonunda təhlükəsizliyin təmininin də narahatedici olduğu bildirilir. Ermənistan rəhbərliyinin isə problemi həll etmək iqtidarında olmadığı ayrıca vurğulanır.

### Ruben Akopyan: "Hakimiyyət kobud güc tətbiq etsə, bunun cavabsız qalacağını gözləməsin"

Erməni mətbuatının verdiyi məlumata görə, mart ayının ikinci ongünlüyündə müxalif hərəkatı olan "Yeni Ermənistan" hakimiyyəti total saxtakarlıqla ələ keçirən Serj Sarkisyana qarşı növbəti mitinqlər keçirəcəklərini bildirib. Hərəkatın üzvləri bildirirlər ki, saxta seçkilərlə hakimiyyətə gələn Serj Sarkisyan ölkədə hələ də gərgin siyasi vəziyyət yaratmaqda davam edir. Proseslərin gedişi göstərir ki, hərəkat üzvləri məqsədlərinə çatana, yəni Serj Sarkisyanı hakimiyyətdən kənarlaşdırana qədər mübarizə aparmaq niyyətindədirlər.




Ermənistan prezidentliyinə namizəd olmuş İrs Partiyasının lideri Raffi Ovanisyan bildirib ki, həyatı bahasına da olsa, erməni xalqı bu yoldan dönməyəcək.

İrs Partiyasının parlament fraksiyasının rəhbəri Ruben Akopyan isə bəyan edib ki, hakimiyyət kobud güc tətbiq etsə, bunun cavabsız qalacağını gözləməsin: "Raffi Ovanisyanın təbəssümlərində qətiyyətsizlik axtarmaq lazım deyil. Zərurət yaransa, biz özünümüdafiə hüququmuzdan istifadə edəcəyik. Qoy kimsə düşünməsin ki, kobud güc tətbiq etsə, cavabını almayacaq. İndi çoxları Ermənistanda qeyri-sabitlikdə maraqlı olmadığını deyir. Biz də bunda maraqlıyıq, lakin xalq öz hüquqları uğrunda mübarizə aparırsa, sabitlik elə budur, biz bu cür sabitlik istəyirik".



Belə bir vaxtda Ermənistanın ən böyük oliqarxlarından olan "Çiçəklənən Ermənistan" Partiyasının lideri Haqik Çarukyanla Ovanisyan arasında görüş də Sarkisyanın narahatlığına səbəb olub. Ovanisyan görüşlə bağlı bildirib ki, Çarukyan və onun partiyasının digər təmsilçilərinə görə, Ermənistan vətəndaşlarının öz hüquqlarına hörmət olunmasını tələb etməyə tam haqqı var: "Onlar, həmçinin, bizimlə narahatlıqlarını bölüşüblər və dəyişikliklərin zərurətini təsdiqləyiblər. Çarukyan partiyasının mövqeyini ifadə edərək, deyib ki, o, və tərəfdarları həmişə xalqla bir olacaq. Biz mövcud böhranın aradan qaldırılması üçün əməkdaşlıq etməyə qərar vermişik".

Yaranmış durumu şərh edən erməni iqtisadçı Aşot Yegizaryan hesab edir ki, vəziyyət getdikcə pisləşir və Avrasiya İqtisadi İttifaqına daxil olmaqla Ermənistan iki sferada tənəzzülə uğradı: "İqtisadiyyatda xarici ticarət dövriyyəsi azaldı, daxili istehlak aşağı düşdü, bir sıra sahələrdə isə geriləmə qeydə alındı. Bununla yanaşı, təhlükəsizliyin təminində də problemlər yarandı. Belə görünür ki, inkişaf zonaları formalaşır, məsələn, Transatlantik əməkdaşlıq kimi, dünyanın digər hissələrində isə əyalət adlana biləcək zonalar cızılır. Ermənistan bütün bunlardan kənarda qalır. Ermənistan perspektivli yeni dünya nizamı çərçivəsindən kənarda qalıb".

Son günlər Ermənistanın minlərlə vətəndaşının paytaxt Yerevan küçələrinə axışaraq, Serj Sarkisyanın istefasını tələb etməsi artıq günün əsas mövzusuna çevrilmişdir. Əslində, bu, heç də təəccüb doğurmur. Çünki dəfələrlə ermənilər bu iqtidardan təngə gəldiklərini öz yürüş və mitinqlərilə göstərsələr də, despot xasiyyətindən əl çəkməyən S.Sarkisyan rejimi xalqın bu haqlı tələbini hər dəfə boğmaq üçün əlindən gələni etmişdir. İnsanlar Yerevanın mərkəzi küçələrində, prezident sarayının və Sarkisyanın iqamətgahının önündə kütləvi aksiyalar keçirərək, sosial problemlərdən şikayətçi olduqlarını bildiriblər. Azadlıq meydanında keçirilən etiraz aksiyasında Serj Sarkisyanın istefası da tələb olunmaqla yanaşı, "Azad və müstəqil Ermənistan uğrunda!" şüarları səsləndirilib.

Göründüyü kimi, sosial-iqtisadi böhranın məngənəsində çabalayan Ermənistan hökuməti yalnız müharibə imitasiyası yaratmaqla ömrünü uzatmağa çalışır. Reallıq isə budur ki, Ermənistan müharibəsiz məğlubiyyətə düçar olubdur. Çünki Sarkisyan rejimi Ermənistanda 10 nəfərin ölümü, yüzlərlə insanın yaralanması və həbsi ilə nəticələnən 2008-ci il prezident seçkiləri ilə hakimiyyətə gəlmişdir. Şübhəsiz, o gündən indiyədək heç nə dəyişməmiş, əksinə, Ermənistan daha ağır problemlər girdabına qərq olubdur.

**A.SƏMƏDOVA**

# MƏDƏNİ İRSİMİZİN TƏBLİĞİNDƏ YENİ ÜFÜQLƏR

***Beynəlxalq aləmdə millətlərarası münaqişələrin yaşandığı dövrdə Azərbaycan sülh və əmin-amanlıq istəyini, humanist, dini tolerantlığa hörmətlə yanaşan, milli-mənəvi dəyərləri qoruyan, mədəniyyətlərarası dialoqa töhfə verən xalq olduğunu nümayiş etdirir. Əsrlər boyu Azərbaycan müxtəlif mədəniyyətlərin, dinlərin və sivilizasiyaların qovuşduğu məkan olduğundan qarşılıqlı əlaqələr Azərbaycanda gündəlik həyat tərzinə çevrilib və ölkəmizin mədəniyyəti dünyanın bütün qitələrində təbliğ edilərək, sərhədsiz dünyaya çıxıb. Qloballaşma, etnik münaqişələr, dözümsüzlük, təcavüz əsrində Odlar diyarı Şərqə məxsus qonaqpərvərlik ənənələrini, birgəyaşayış modelini və mədəniyyətini qoruyub saxlayır.***

Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ölkəmizin dünyadakı rolunu, inkişafını, ölkəmizə beynəlxalq aləmin, aparıcı dövlətlərin hörmətini və rəğbətini göstərir. Son illər mədəniyyətlər və sivilizasiyalararası dialoq istiqamətində keçirilmiş beynəlxalq tədbirlərin statistikasına və coğrafiyasına diqqət yetirsək, görərik ki, bu sahədə təşəbbüslərin çox böyük əksəriyyəti artıq beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan statusu qazanmış Azərbaycan tərəfindən olmuşdur. Bakıda keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" Forumu, İslam Ölkələri Elm və Təhsil Nazirlərinin VI Konfransı, "Bakı - İslam Mədəniyyətinin Paytaxtı - 2009", İslam Ölkələri Mədəniyyət Nazirlərinin VI Konfransı, Dünya Dini Liderlərinin Bakı Sammiti, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və onlarla bu kimi tədbirlər elm, mədəniyyət sahəsində əlaqələrin yaradılması və xalqlar arasında dialoqun qurulmasında böyük əhəmiyyətə malikdir.

Qeyd edək ki, bir çox beynəlxalq səviyyəli tədbirlər kimi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilmə məkanının yekdilliklə Azərbaycan paytaxtının seçilməsi qərarı təkcə ölkəmizin geosiyasi əhəmiyyəti ilə deyil, həm də ölkəmizin müxtəlif etnosların və millətlərin tarixən mehriban dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant məkan və ilkin bəşər mədəniyyətinin təşəkkül tapdığı ərazilərdən biri olması ilə bağlıdır. Forum artıq mədəniyyətlərarası məclis kimi dünya miqyaslı brend kimi səslənir. Belə ki, sözügedən forum mədəniyyətlərarası dialoq, sülh, əməkdaşlıq, irqi və dini dözümsüzlük hallarının aradan qaldırılması və s. bu kimi məsələlərin müzakirəsi üçün qlobal brend statusu qazanıb. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif xalqların bir-birlərinin mədəniyyətlərinə daha yaxından bələd olmaları baxımından da təqdirəlayiqdir. Azərbaycan dövləti tərəfindən həyata keçirilən xoşməramlı siyasət, eləcə də, müxtəlif mədəniyyətlərin və qitələrin qovuşuğunda yerləşən ölkəmizin həm geosiyasi vəziyyəti, həm də mədəni zənginliyin "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini Avropa və ona qonşu regionların hüdudları çərçivəsindən çıxararaq, qlobal səviyyəyə yüksəldib.

### QLOBALLAŞAN DÜNYAMIZDA XALQLARI YAXINLAŞDIRAN MƏHZ MƏDƏNİYYƏT KÖRPÜSÜDÜR

Azərbaycanın beynəlxalq arenada tanınmasında, qədim və zəngin mədəniyyətə malik xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasında mövcud əlaqələrin olması danılmazdır. Təbii ki, beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin dünya ictmaiyyətinə çatdırılmasında optimal yol xalqlararası münasibətlərin möhkəmlənməsidir. Əlbəttə, müasir dünyamızda insanları bir-birinə birləşdirən və yaxın edən, məhz mədəniyyət körpüsüdür.

Müstəqillik illərində, ölkə həyatının inkişaf edən bütün sahələri kimi, mədəniyyət və incəsənətimiz də zənginləşib, beynəlxalq aləmdə daha geniş miqyasda tanınıb və zəngin tarixi-mədəni irsi ilə öz sözünü deyib. Şübhəsiz ki, hər bir inkişaf özündən əvvəlki təmələ söykənir. Ötən əsrin sonunda milli dövlətçiliyini bərpa edən Azərbaycanın müstəqillik yolunda qazandığı nailiyyətlərin, mədəniyyət sahəsində uğurlarımızın da təməli böyük ölçüdə 70-80-ci illərdə Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə qoyulmuşdur. Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də mədəniyyətimizin himayədarı olub, bu sahəyə diqqət və qayğısını əsirgəməyib. Bu siyasət Heydər Əliyev siyasətinin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və daha da zənginləşdirilir. Prezident İlham Əliyevin respublikaya rəhbərliyinin ilk illərindən tarixi-mədəni irsə bağlılıqla bərabər, modernləşmə, qabaqcıl dünya təcrübəsinin tətbiqi və idarəetmədə islahatlarla müşayiət olunub. Təbii ki, mədəniyyəti geniş məkana çıxarmaq, təqdim və təbliğ etmək üçün xalqın böyük sənət nümunəsi, zəngin irsinin olması vacib amillərdəndir. Milli adət-ənənələrimizin, elm və mədəniyyətimizin inkişafı, Qarabağ həqiqətlərinin təbliği yönümündə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci Xanımı, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın dəstəyilə keçirilən layihə, proqram, tədbirlər də öz əhəmiyyəti və müxtəlifliyilə seçilir. Fond tərəfindən ölkəmizin dünyada təbliğinə yönələn hədəflər uğurla reallaşmaqdadır. Qloballaşma, etnik münaqişələr, dözümsüzlük, təcavüz əsrində ölkəmiz Şərqə məxsus qonaqpərvərlik ənənələrini, birgəyaşayış mədəniyyətini qorunub saxlayır və



dünyaya təqdim edir. Azərbaycan milli dəyərlərinə, mədəniyyətinə və incəsənətinə böyük həssaslıqla yanaşan Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən beynəlxalq tədbirlər ölkəmizin tərcümanına çevrilib. Mehriban xanım mədəni irsimizin dünyada tanıdılmasında yeni üfüqlər açıb. Qobustan qayaüstü rəsmləri, Muğam sənəti, Azərbaycan aşıq sənəti, Novruz bayramı, Xalçaçılıq sənəti, Tar ifaçılıq sənəti, Çövkən milli oyunu, Kəlağayı sənəti, Lahıc misgərlik sənəti YUNESCO-nun müvafiq siyahılarına salınaraq, ümumbəşəri irs statusu qazanıb.

### MƏDƏNİYYƏT NÜMUNƏLƏRİMİZ BƏŞƏR SİVİLİZASİYASINA ÖZ TÖHFƏLƏRİNİ VERİR

Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı və s. artıq ənənəyə çevrilərək, müasir mədəniyyət tariximizə yeni səhifələr yazmış və milli mədəniyyətimizin dünyada təbliğində əhəmiyyətli rol oynayır. Ü.Hacıbəylinin "Koroğlu" operası türkdilli ölkə sənətçilərinin iştirakı ilə tamaşaya qoyulması, "Arşın mal alan" operettasının Vyanada, Qara Qarayevin "Yeddi gözəl" baletinin ilk dəfə ABŞ-da səhnə həyatı qazanması milli mədəniyyətimizin təbliğində əhəmiyyətli rol oynamırmı? Dünya milli musiqimizə, bəstəkarlarımıza, əsrlərdən soraq verən sənət dünyamıza valeh olmaya bilərmi? 57-ci Venesiya Biennalesi-Beynəlxalq İncəsənət Sərgisində Azərbaycanın iştirakı və "Bir günəş altında. Birgə yaşamaq mədəniyyəti" adlanan milli pavilyonda Azərbaycanın multikultural ənənələrinin və tolerantlığın əksi ölkəmizdəki mövcud ənənələrin göstəricisi deyildimi? Belə əsərləri ilə dünyaya çıxan Azərbaycan sənət əsərlərinin dili ilə bəşəriyyəti birgə yaşamaq mədəniyyəti haqqında düşünməyə çağırır və hər kəsin ölkəmiz haqqında olan təsəvvürlərini daha da dərinləşdirir. İtaliyada keçirilən Birinci Azərbaycan Film Festivalında "Əbədi ezamiyyət" sənədli filmi, eləcə də "Pərdə", "Yarımçıq xatirələr" və "İçəri Şəhər" bədii filmlərinin nümayişi Azərbaycan tarixi, mədəniyyəti və incəsənəti ilə bağlı bir çox reallıqları canladırmış oldu. 2016-cı ildə ölkəmizdə "Multikulturalizm İli" çərçivəsində ərsəyə gələn və Azərbaycanda yaşayan azsaylı xalqların və etnik qrupların həyatından bəhs edən "Bir günəş altında" sənədli filmi də italyanları Azərbaycan həqiqətlərininin sanki iştirakçısına çevirmiş oldu.

Həqiqətən də, Azərbaycanın tarixi mədəniyyəti və dəyərləri nə qədər təbliğ olunsa da bitib-tükənməyir. Elə Fransada "Azərbaycan parkı"nın və Xurşudbanu Natəvanın abidəsinin açılışı da fikirlərimizi təsdiqləyir. Əlbəttə ki, fransızlar X.Natəvan haqqında məlumata malik idilər. Böyük fransız yazıçısı Aleksandr Düma ilə şairənin görüşü bunu deməyə əsas verir. Təbii ki, mədəniyyət xalqlar arasında mübadilə olduğundan, insanlar bir-birini daha da yaxından tanıyır. Bütün bunlar Azərbaycan ilə Fransa arasında yaradılmış ilk körpü deyildi. Artıq iki ölkənin 15 şəhəri arasında dostluq və əməkdaşlıq xartiyası imzalanıb. Fondun Moskvada "Bakıya məhəbbətlə" fotosərgisi, Parisdə "Odlar yurdu Azərbaycanın müasir əsərləri" sərgisi, Avropa Parlamentində Azərbaycan mədəniyyəti günləri və onlarla belə tədbirlər Azərbaycan reallıqlarını təqdimində əhəmiyyətlidir. Eləcə də, Parisdə Luvr Muzeyinin qarşısındakı məşhur "Pale Royal" meydanında "Azərbaycan şəhərciyi"nin açılışı fondun həyata keçirdiyi layihələrin davamıdır. Belə tədbirlərin dünya ölkələrində təşkili Azərbaycanın zəngin tarixi, mədəniyyəti, milli dəyərləri ilə bəşər sivilizasiyasına töhfələr verdiyini bir daha təsdiqləyir.

Sadalamaqla sona yetməyən nailiyyətlər Heydər Əliyev Fondunun həyata keçirdiyi əhəmiyyətli layihələrin məntiqidir. Fondun prezidentinin təşkilatçılığı və səmərəli əlaqələrinin davamı olaraq dövlətlərarası formalaşmış sıx əməkdaşlıq Azərbaycanın nüfuzunun daha da artmasına yönəlib.

Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunması, təbliği və təşviqi məqsədilə reallaşdırılan "Xalq Yaradıcılığı Paytaxtları" Proqramı da bu qəbildəndir. Regionların mədəni həyatına yeni ilmələr qazandıran proqrama əsasən 15 şəhər və rayon "əfsanələr", "folklor", "sənətkarlıq" nominasiyaları üzrə "paytaxt"a seçilmiş, çoxsaylı tədbirlər və layihələr həyata keçirilmişdir. Həyata keçirilən bir sıra layihələr geniş vüsət qazanaraq, beynəlxalq mədəniyyət tədbirlərinə çevrilib. Masallıda folklor, Qəbələdə mürəbbə, Şəkidə şirniyyat festivalları buna nümunədir. "Xalq Yaradıcılığı Paytaxtları" Proqramında təmsil olunan bəzi bölgələr beynəlxalq təşkilatlar formatında "Mədəniyyət Paytaxtı" adını qazanıb. 2013-cü ildə Qəbələnin "MDB-nin mədəniyyət paytaxtı" olması, Şəki şəhərinin 2016-cı il üçün TÜRKSOY tərəfindən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsi regionların mədəni irsinin tanıdılmasında əhəmiyyətlidir.

Göründüyü kimi, həyatımıza rəng qatan, maraqlı və əsrarəngiz mədəniyyət nümunələri müasir dünyaya töhfələrini verir. Azərbaycanın dövlətçilik tarixinin, mədəniyyətinin, adət-ənənələrinin təbliğ olunması, yaşaması istiqamətində görülən tədbirlər dövlətçiliyimizin sağlam təməl üzərində qurulduğunu təsdiqləyir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi altında əldə olunan uğurlu diplomatik əlaqələr nəticəsində Azərbaycanın dünya çapında nəhəng dövlətlərlə bir sırada dayanması nailiyyətlərimizin bariz nümunəsidir.

**ZÜMRÜD BAYRAMOVA**

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

TƏRS BAXIŞ

# AMİP-dən müxalifətə Zimbabve dərsi

## *Yaxud Arzuxan Əlizadədən Əli Kərimliyə eyham*

Zimbabvedə baş vermiş dövlət çevrilişinin ardınca, ölkədə fəaliyyət göstərən AXCP, Müsavat və s. tipli dağıdıcı müxalifət partiyaları dərhal bu hadisənin "təkrarının" Azərbaycanda da baş verəcəyini iddia etməyə başladılar. Əlbəttə, süni və lazımsız iddiaların ortaya atılmasında pərgar olan radikalların bu tipli oyunbazlıqları ictimai rəydə gülünc olaraq qarşılansa da, köhnə ənənələrinə sadiq qalan Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı kimi uğursuzlar hələ də bu iddialarını zorla sırımağa cəhdlər edirlər.

### AMİP-in yetkilisi: "Bir çox siyasilər inqilab dalğasının Azərbaycandan da yan keçməyəcəyi ilə bağlı proqnozlar versələr də, bu, baş vermədi"

Məsələnin digər maraqlı məqamı budur ki, müxalif düşərgədə olan başqa partiyalar, misal üçün, AMİP funksionerləri belə iddiaların heç bir reallığa uyğun olmadığını deməklə, bir sıra faktları ortaya qoyurlar. Milli istiqlalçıların sədr əvəzi Arzuxan Əlizadəyə görə, Azərbaycanda bir sıra müxalifət qurumlarının müxtəlif ölkələrdə inqilablar olanda, həmin hadisələrdən müəyyən impulslar aldıqlarını, həvəslənib hərəkətləndiklərini bildirərək, belə qənaətə gəlib ki, 2003-cü ilin sonunda Gürcüstanda baş verən "qızılgül inqilabı"ndan başlanan bu tendensiya bir neçə il öncəki "ərəb baharı"na qədər davam etdi. Ancaq iddia edənlərin ümidləri elə boş ümid olaraq da qaldı. "Bir çox siyasilər inqilab dalğasının Azərbaycandan da yan keçməyəcəyi ilə bağlı proqnozlar versələr də, bu, baş vermədi"-deyə qeyd edən Əlizadəyə görə, əslində, baş verməsi mümkün də deyildi və çox şükürlər olsun ki, baş vermədi...

### "Əsasən, müsəlman əhalinin yaşadığı bu regionda alovlanan cəhənnəm odunun nə zaman sönəcəyi də bəlli deyil"

SİTAT: "Sonradan hadisələrin gedişi də onu göstərdi ki, bu inqilablar heç də kortəbii surətdə deyil, bəlli güclərin əvvəlcədən planlaşdırılmış ssenarisi əsasında baş verib. "Ərəb baharı"nın nəticələri göz qabağındadır. Böyük bir coğrafiya bu gün də od içində yanır, içərisində uşaqların və qadınların da çoxluq təşkil etdiyi minlərlə insan həyatını itirib, yaralı sayı on minlərlə ölçülür və milyonlarla insan doğma ev-eşiyindən didərgin düşərək, taleyin ümidinə buraxılıb. Əsasən, müsəlman əhalinin yaşadığı bu regionda alovlanan cəhənnəm odunun nə zaman sönəcəyi də bəlli deyil".

AMİP-in yetkilisi onu da bildirib ki, bir həftə əvvəl Zimbabvedə baş vermiş hakimiyyət dəyişikliyi fərqli rakursda olsa da, istənilən halda, hesab edir ki, müxalifətdə olub-olmamasından asılı olmayaraq, siyasilər dünyada baş verən hadisələri, xüsusilə də, bu tip olayları diqqətlə araşdırmalı və düzgün nəticə çıxarmağa çalışmalıdırlar.

### "İxrac olunan və ssenarisi xaricdə tərtib olunan inqilablar heç vaxt baş verdiyi ölkəyə xoşbəxt gələcək vəd edə bilməz"

Söz yox ki, A.Əlizadə bununla son zamanlar sosial şəbəkələrdə "Muqabe olayı" deyilən hadisədən süni olaraq yararalanıb, siyasi xal toplamağa çalışan AXCP sədri Ə.Kərimliyə eyham vurub. Çünki Kərimli yalnız xarici dairələrlə iş birliyi quraraq, dövlət maraqları əleyhinə iş aparır. Üstəlik, bu günlərdə onun separatçı baxışları olan vətən xainləri ilə də qurduğu iş birlikləri meydana çıxıb. Şeytanla da əməkdaşlıq etməyə hazır olduğunu açıq-aşkar bildirən AXCP sədrinə, demək olar ki, dərs keçən AMİP rəsmisi bildirib: "Ümumiyyətlə, onu da nəzərə almaq lazımdır ki, ixrac olunan və ssenarisi xaricdə tərtib olunan inqilablar heç vaxt baş verdiyi ölkəyə xoşbəxt gələcək vəd edə bilməz".

Beləliklə, birbaşa olmasa da, dolayı yolla Ə.Kərimliyə və onun düşüncəsində olan İ.Qəmbər, A.Hacılı tipli xəyanətkarlara səslənən AMİP-in sədr əvəzi onların boş-boşuna xəyallar qurmamaqlarına bir növ tövsiyə verib.

**RÖVŞƏN**

# Müxalifətin seçki pərakəndəliyi indidən bəllidir

Son vaxtlar ənənəvi müxalif düşərgədə süni hərəkətlilik müşahidə olunsa da, bu "fəallığın", sadəcə, daxili auditoriyaya hesablandığını demək olar. Belə ki, gələn il Azərbaycanda keçiriləcək növbəti prezident seçkiləri ilə əlaqədar bu və ya digər şəkildə canfəşanlıqlar göstərməyə çalışan "liderlər" bu kimi vasitələrlə "mən də varam" tipli özünüreklamla məşğul olurlar. Hətta bir sıra müxalifət partiyaları özünün mərkəzi strukturlarının toplantı və iclaslarını keçirərək, 2018-ci il seçkiləri ilə bağlı mövqeyini müəyyənləşdirir, bəzi partiyalar isə namizədlərinin adlarını belə açıqlayırlar. Ancaq bütün bunların quru göstəriş olduğu gün kimi aydındır.

### 2018-ci ilin seçkilərinə də "vahid namizəd" müəyyən edə bilməyəcəklər

Ümumiyyətlə, ənənəvi müxalifət düşərgəsində cərəyan edən proseslər, bu düşərgədə təmsil olunan bəzi partiyaların digər siyasi təşkilatlara qarşı yuxarıdan aşağı baxması isə, onu deməyə əsas verir ki, Azərbaycan müxalifəti 2018-ci ilin seçkilərinə də "vahid namizəd" müəyyən edə bilməyəcəklər. Üstəlik, seçkilərə pərakəndə getməklə sübut edəcəklər ki, onların heç biri normal siyasi çevrəyə aid olan təşkilatlar deyillər.

Misal üçün, Azərbaycan Liberal Demokrat Partiyasını da bu partiyalara aid etmək olar. Partiyanın sədri Fuad Əliyev deyib ki, seçkilərdə onun iştrakı ilə bağlı partiyanın qurultayında qərar verilib. O bildirib ki, qurultay prezident seçkisində iştirak etmək üçün onun namizədliyini təsdiq edib. Belə olan halda, müxalifətin "vahid namizəd" məsələsi ortaya çıxarsa, ALDP sədri həmin namizədin kimliyinin araşdırılmasından sonra dəstək verib-verməyəcəyini bildirib.

### Fuad Əliyev: "Mən də bu günə qədər demirdim, xətirlərinə dəymək istəmirdim"

"Müxalifət "vahid namizəd" müəyyənləşdirərsə, onun siyasi fəaliyyətini təhlil edəcəyik, siyasi kursunun bizim kursa, mövqeyimizə uyğun olduğunu araşdırandan sonra qərar verə bilərik"-deyə qeyd edən F.Əliyev, əslində, bəri başdan bu seçimi etməyəcəyini dolayı yolla bildirib. Üstəlik, 2013 seçkilərini də xatırladaraq, hər zaman "vahid namizəd" məsələsinin uğursuz nəticələndiyini etiraf edib: "Müxalifətin bəzi partiyalarının yaratdığı seçki blokunun irəli sürdüyü birinci namizədi - Rüstəm İbrahimbəyov uğursuz oldu. Onun "gələn ayın əvvəli gəlirəm", "bu ayın sonu gəlirəm" və s. bəyanatları həmin qurumun fəaliyyətini demaralizə etmişdi və nəticə olaraq seçkiyə az bir müddət qalmış yeni namizədin axtarışına çıxmışdılar..."

Yeri gəlmişkən, ALDP sədri "Milli Şura" amilinin də uğursuz olduğunu bildirib və özünü heç vaxt orada görmədiyini deyib. O, yenə də R.İbrahimbəyov problemi üzərində dayanaraq, bildirib ki, onun namizədliyini irəli sürənlər də müxalifətə səmərə verməyən tərəflərdirlər. Ona görə də, heç vaxt "Milli Şura"ya dəstək göstərməyib: "...Birinci dəfə müxalifətin vahid namizədinin R.İbrahimbəyovun olacağı səsləndi. Daha sonra R.İbrahimbəyovun namizədliyinin kim tərəfindən irəli sürülməsi və seçki qurumun kim tərəfindən dəstəklənməsi mənə məlum olduqdan sonra, ora üzv olmaqdan imtina etdim....Mən də bu günə qədər demirdim, xətirlərinə dəymək istəmirdim. Yəni "Milli Şura"da bu məsələ ilə bağlı vahid mövqedən çıxış edilmədi. Ona görə də mən özümü orada görmədim".

Beləliklə, faktlardan biri də budur ki, bir sıra partiyalarla yanaşı, ALDP də "vahid namizəd" məsələsində vahid mövqedən çıxış etməyəcəyini bəyan edir. Bu fakt isə sübut edir ki, müxaifət 2018-ci il seçkilərinə də pərakəndə gedəcək.

**R. RƏSULOV**

# Gültəkin Hacıbəylinin şəxsiyyətsiz kimliyi yenə ortalıqda

***"Milli Şura"nın "primadonnası" Gültəkin Hacıbıyli mitinqlərdə söz deməyə macal tapmadığı üçün, indi də başlayıb sosial şəbəkələrdə çıxış etməyə. Həyasızlığın son nöqtəsi buna deyirlər. Utanmasan, oynamağa nə var ki...***



Bu günlərdə G.Hacıbəyli yağın gömrük rüsumu ilə bağlı məsələni eşidər-eşitməz başlayıb "yol göstərməyə". Sosial şəbəkədə yazır ki, "Azərsun"un bütün məhsulların qiymətini yenidən qaldırması, qida məhsullarında böyük bahalaşmaya səbəb olacaq.

Bu yerdə danışmayasan, neyləyəsən! Nankor, şəxsiyyətsiz kimliyi olan G.Hacıbəyli demokratiya libasına bürünən, xalqa demokratik prinsiplərdən dərs keçən, yeri gəldi-gəlmədi, iqtidarı tənqid edənlərin əsl mahiyyətini və gerçək simasını bir daha ortaya qoyur. Uzun illər bu dövlətin çörəyini yeyən, sonradan əqidəsini 180 dərəcə dəyişən, Vətənindən və dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - nankorluq. Bu, o nankordur ki, parlamentdə çıxışlarında da əhalinin problemlərini dilə gətirməyə vaxtı olmurdu. İndi isə hər zaman fədakarlıq etmiş xalqı susmaqda ittiham edir və aşağılayır. Həyatı boyu güldən-bülbüldən danışan, iqtidarın siyasətini bəh-bəhlə tərifləyən, AŞ PA-da hakimiyyəti təmsil edən Hacıbəyli indi xalqa tənə yağdırır, özünü Janna d-Ark hesab edərək, inqilabçılığın sublimasiyasını yaşayır.

G.Hacıbəylinin məqsədi, ilk növbədə, Azərbaycanın beynəlxalq arenadakı yüksək mövqeyinə, yerinə və roluna kölgə salmaqdır. O da sirr deyil ki, ümumiyyətlə, istər "Milli Şura", istərsə də AXCP, bu sıraya daxil olan G.Hacıbəyli xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst anti-Azərbaycan meyilli qüvvələrə nökərçilik göstərməklə, mənfəət əldə etmək üçün dəridən-qabıqdan çıxırlar. Bu baxımdan, onlara təklif edilən zamanı və yeri öz təbirlərincə münasib bilmədiklərini deyərək, siyasi şou göstərib, "mühacir biznes"lərinə daha çox adamı cəlb etməyə cəhd göstərirlər.

### "Milli Şura"nın əqidəsizlik və satqınçıqlıq məskəni

Xislətinə uyğun olan yeri seçib, G.Hacıbəyli. "Milli Şura"da satqınçılıq simvolu olan AXCP sədri Ə.Kərimli, sözdə "bu ölü qurumun sədri ikiüzlü, xəyanətkar C.Həsənli və zadlar, zadlar... onlara da qoşuldu şəxsiyyətsiz G.Hacıbəyliyə. Bu, o məxluqlardır ki, azərbaycanlı adları və soyadlarını daşısalar belə, real azərbaycanlı olmaq dəyəri onlardan qatqat uzaqdadır. Hətta o qədər uzaqdadır ki, erməni dəyəri və marağı daha yaxındır belələrinə. Əqidəsizlik, satqınçılıq, ikiüzlülük, xəyanət, paxıllıq, xəbislik, şantajçılıq və pul hərisliyi! Bütün bunlar hazırda onlara öz xeyri, mənfəəti naminə qucaq açmış AXCP sədri Ə.Kərimlidə də var. Amma fakt budur ki, su axıb, çuxurunu tapıb. Gültəkin AXCP və "Milli Şura" adlı çuxura axıb, kirli, üfunətli və mamır basmış gölməçədə birləşib. Hakimiyyətə qarşı Ə.Kərimli hansı havanı çalırsa, həmin hava altında şıdırğı gedir. Daha abıra-zada qısılıb, vicdana gəlib demir ki, əşşi, axı bir neçə il öncə bu hakimiyyəti tərif edir, seçkilərdə dəstəkləyir, özümüz də deputat-filan seçilirdik. İndi bizdə bir balaca da vicdan qalmayıb və indinin özündə xalqın dəstək verdiyi hakimiyyətə və dövlətə arxa çevirib, Ə.Kərimli kimi "malçişka"nın "otur-dur" komandasını icra edirik. Üstəlik, buna görə ağzımıza sümük atan da olmur! Çünki G.Hacıbəyli sən abıra-zada qısılıb-eləmirsən. Olmayan şeyə necə qısılasan. Abırsızdan isə başqa nəyi gözləmək olar? Vətənə, millətə, xalqa sədaqətimi? İçindən çörək yediyi çörəkqabına sahib çıxmağımı? Nə edirsən et, xalq kimin kmi olduğunu yaxşı bilir. Necə deyərlər, "çalxalandıqca, bulandıqca zaman nehrə kimi, yağı yağ üstə çıxır, ayranı ayranlıq olur"

**Rəfiqə HÜSEYNOVA**

# Azərbaycan xalqının adət-ənənələri: mif, əfsanə və nağıllardakı andlar

***Ta əski zamanlardan üzü bu yana, ana südü həmişə müqəddəs bilinmiş, ondan keçilməmiş, nağıl və dastanlarımızda divlər, pərilər belə analarının südünə and içdikdən sonra bağladıqları şərti pozmamış, hətta hünərli bir kimsənin münasib işi müqabilində “ananın südü sənə halal olsun” - deyə alqışlamışlar. İnama görə, övlada qarşı atanın qarğışı ana qarğışından güclüdür. Amma ananın övladına qarşı qarğışı, nə qədər amansız olsa belə, gücsüzdür, kəsərsizdir. Çünki inama görə, ananın övladına əmizdirdiyi süd söylədiyi qarğışın qarşısını alır, onu təsirsizləşdirir. Bununla yanaşı, ana naxələf övladına “südüm burnundan gəlsin” qarğışını da söyləyir. Bundan savayı, bir kimsə əzab-əziyyətə, sıxma-boğmaya düşdükdə də, öz halını, vəziyyətini “Anadan əmdiyim süd burnumdan gəldi” deyimi ilə izah eləyir.***

Məsələ ilə yaxınlıq, tanışlıq sayəsində aydın olur ki, əski zamanlarda adamlarda belə bir inam olub: ölü dəfn olunduğu günün gecəsi guya qəbir onu o qədər sıxır ki, hətta anadan əmdiyi və həmişə canında qalmış süd burnundan gəlir. Söylənilən qarğış da, sözsüz ki, bu təsəvvürlə bağlıdır.

Deyilənlər bir daha sübut edir ki, Azərbaycan xalq məişətində, eləcə də, onun bədii yaradıcılıq nümunələrində alqış və qarğışlar, eləcə də, digər xalq inamları öz kökü ilə əski etiqadlar və mifik anlayışlarla sıx bağlıdır. Odur ki, bu örnəklər xalqın mənəvi mədəniyyətinin tarixi inkişaf yolunu dərindən öyrənmək baxımından çox dəyərlidir.

Etnosun maddi və mənəvi mədəniyyətinin hərtərəfli öyrənilməsində mühüm mahiyyət kəsb edən etnoqrafiyanın etiket sahəsi cəmiyyətdə əxlaq, davranış, rəftar, vərdiş, hərəkət, həmçinin, danışıq-nitq normalarını özündə ehtiva edir. Qədim inam və etiqadlarla, insanların ilkin təsəvvür və düşüncələri ilə bağlı yaranan andlar da gündəlik danışıq etiket tipidir. Ünsiyyət vasitəsi olmaqla and tərəflərin hadisəyə, olmuşa və olmalıya münasibətlərini ifadə edir. Andlar, əsasən, iki yolla yaranır. Birincisi, mifoloji təsəvvürün ortaya çıxardığı sakral-müqəddəs sayılanlara içilən andlar. Əski çağlardan yaranan bu qəbil andlar elə indinin özündə də məişətdə yaşamaqdadır. İkincisi, müəyyən bir iş, məsələ, əhvalat və hadisə ilə bağlı yaranan andlardır. Andların hər iki növündə söylənilmiş fikirdəki mahiyyətin yalan yox, doğru olması andiçmə ilə təsdiqlənir. Bu səbəbdən, andiçməyə həmişə ciddi yanaşılmış, yalandan and içmənin isə fəlakət törədəcəyinə inanmışlar. Bir vaxt ölüm cəzası yalnız yalandan andiçməyə görə təyin olunurmuş. Bir qədər yüngülləşdirilmiş şəkildə olsa da, belə bir yönün davamını and içmənin yalan, yoxsa doğru olmasını müəyyənləşdirmək üçün keçirilən “Qurd seyiri” ayinində də görürük. Qaydaya görə, bir kimsənin andının doğru olub-olmamasını yoxlamaq üçün qurd seyiri (qurdun topuğunun üst hissəsi seyir adlanır) yandırılır. Qurd seyiri yandırıldıqda yığılırsa, deməli, sınanılanın da andı yalandır və o da özündən asılı olmayaraq yığılmağa başlayır. Qurd seyiri qutsal sayılır. Ümumiyyətlə, onun yandırılması uğursuzluğun başlanğıc işarəsidir. Buna görə də, yalandan and içən qurd seyirinin yandırılmasına razı olmayıb, günahını boynuna alır.

İslam dini ənənələrinin Azərbaycana gəlişi ilə bu sayaq andlar öz yerini, əsasən, “Qurani-Kərim”ə verməli olmuşdur. Yəni, “Quran”a and içmək ən ağır, çətin imtahan sayılmışdır. Bir kimsənin “Quran”a yalandan and içdiyi bilinsə belə, and içdirən and içənə inanmalı olmuşdur. Çünki Tanrının “Quran”a yalandan and mütləq cəzalandıracağına şübhə edilməmişdir. Məhz belə bir anda “Kitabi-Dədə Qorqud”da tuş oluruq. Sözsüz, bu abidə islamiyyət vaxtından çox-çox əvvəl yaradıcılıq örnəyidir. Bəlli olduğu üzrə, “Kitabi-Dədə Qorqud”da çox-çoxların izləri vardır. İslamiyyət də onlardan biri kimi.

Bəhlul Abdullanın qeyd etdiyi kimi, abidədən aydın olur ki, oğuzların yaşadıqları vaxtlarda da anda inam çox güclü olmuşdur. İçilmiş andı sındırmaq, ona əməl etməmək bağışlanmır. Oğuzlar, hətta ölümü yalandan and içməkdən üstün tutmuşlar. Abidənin son boyunda deyilir ki, Bozoklar və Ucoklar, eyni zamanda, yığılıb gəldikdə Salur evini yağmaladarmış. O, bir kərə bu adəti pozur. Bu işi yalnız Bozoklar görür. Oğuzun Ucoklar tirəsi bundan inciyib müshəfə (“Quran”dan hissə and içməklə Salur Qazana düşmən kəsildiklərini bildirirlər. Amma onlar dörd niqablı igidlərindən biri olan Bamsı Beyrəkdən hüşəndiklərindən Salur Qazanın üstünə hücum etməkdən çəkinirlər. Odur ki, hiylə işlədib, Bamsı Beyrə arxalanırlar. Müshəfə and içdirib, onu öz tərəflərinə çəkmək istəyirlər. Əks halda, hədələyirlər. Bamsı Beyrək isə ölümünə razı olur, amma canını qurtarmaq üçün müshəfə yalandan əl basıb, and içmir.

Eyni baxımdan, “Kitabi-Dədə Qorqud”un on birinci boyunda Salur Qazanın özünün də and içdiyi maraq doğurur. Kafirlər Salur Qazanı yatmış halda görüb əsir apararlar. Oğuz ərənləri onu qazamatdan qurtarmağa gələndə, kafirlər xana deyirlər: “And iç ki, bizim elimizi yağılığa gəlməyəsən. Həm bizi öy, həm sındırgil, səni qoyu verəlim, var get!” Salur Qazan yalandan and içə bilmir. Bu, Oğuzların şərəfinə sığan iş deyil. Nə etməli? Ya Oğuzları sındırmalı, kimisə öyməli, ya da ölümünə razılaşmalıdır. O, çıxış yolunu ustalıqla tapır. Dolayı yolla belə and içir: “Vallah, billah, doğru yolu görər ikən, əyri yoldan gəlməyəyin. Kafirlər elə zənn edirlər ki, bu andla Qazan xan onların tərəfinə keçmişdir. Əslində isə Salur Qazan xan Oğuzların yolunu “doğru yol” saymış və “bu yoldan əyri yola” getməyəcəyinə, kafirlərlə əlbir olmayacağına and içmişdir.

Qədim zamanlardan Azərbaycanda Günəş, Ay, su, od, ocaq müqəddəs sayılmış, torpağa və çörəyə ehtiram bəslənilmişdir. Bütün bunlar məişətimizdə indi də yaşamaqda olan “Günəşə and olsun”, “Aya and olsun”, “Su haqqı”, “Torpağa and olsun”, “Ocağa and olsun”, “Od haqqı”, “And olsun anamın üz qoyduğu torpağa”, “And olsun kəsdiyimiz duz-çörəyə”, “İşığa and olsun” və s. kimi andların yaranıb yayılmasına yol açmışdır.

Canlı danışıqda dini duyğu və ehkamlara, islam müqəddəslərinə, ziyarətgahlara və pir-ocaqlara aid andlar da az deyil: “Tanrı haqqı”, “Allah haqqı”, “Bu üzü qibləyə and olsun”, “Qurana and olsun”, “Yalan deyirəmsə, Quran qənimim olsun”, “Məscid haqqı”, “And olsun getdiyim Kəbəyə”, “Kəbə haqqı”, “And olsun Əlinin qılıncına”, “Bu Əli yoluna and olsun”, “On iki imama and olsun”, “And olsun Həzrət Abbasın qələm olan qollarına”, “And olsun Kərbəla müsibətinə”, “Peyğəmbər haqqı”, “And olsun qıldığım namaza”, “Tutduğum oruca and olsun”, “Yaradan haqqı”, “Yaradana and olsun”, “And olsun imam Rzanın qəbrinə”, “İmam Hüseynə and olsun”, “Yalan deyirəmsə, getdiyim Həcc qənimim olsun” və s.

Ümumi səciyyə daşıyan və geniş yayılmış bu tərz nümunələrlə yanaşı, nisbətən dar çevrəli, qohumluq, doğmalıq və şəxsi münasibət ifadə edən andlar da məişətdə mühüm yer tutur: “Atamın canına and olsun”, “And olsun anadan əmdiyim südə”, “Başın haqqı”, “Canına and olsun”, “Qardaşım canı”, “Tək balamın canına and olsun”, “Əziz canına and olsun”, “Sənin əziz başına and olsun”, “Sabaha salamat çıxmayım”, “Özüm ölüm”, “Sən öləsən”, “Cavan canına and olsun”, “Atamın goru haqqı”, “Qərib dayımın canı üçün” və s.

Bu andlar həyatda və qarşılıqlı münasibətlərdə tez-tez içilən andlardır.

Məişətdə olduğu kimi, xalq yaradıcılığı örnəklərində də andlar qədərincədir. Burada, nəinki insanlar, hətta sirli-sehrli qüvvələr - divlər, pərilər belə verilmiş vədi və sözü mütləq yerinə yetirəcəklərini bildirmək üçün analarının südünə, Süleyman peyğəmbərin üzüyünün qaşına və s. and içirlər.

Bəhlul Abdulla yazır: “Xalq yaradıcılığı örnəklərində and yalnız sözlə, həmçinin, ayin səviyyəli hərəkət və işlə, əşya vasitəsi ilə də icra olunur. Bu baxımdan, əhdpeyman and baxışı çəkir. İki dost həmişəlik sirdaş və qardaş olacaqlarını əhd-peyman andı ilə təsdiqləyir. Andın əsas əlaməti and içənlərin barmaqlarını çərtib qanlarını bir-birlərinə qarışdırmalarıdır. “Dostluğun sirri” adlı Azərbaycan nağılının əsas qəhrəmanları Məmmədlə Məlik çətin bir səfərə yollanmazdan qabaq etibarlı dostluğu və sədaqəti qanla möhürləyən əhd-peyman andı içirlər”. Nağılda deyilir: “Onlar əhd-peyman elədilər ki, möhkəm dost olaq. İkisi də barmaqlarını çərtib qanlarını qatdılar”. Qılınc altından keçməklə andiçmə də əski təsəvvürlərlə bağlıdır. “Kitabi-Dədə Qorqud”un üçüncü boyunda Bamsı Beyrəyin yalandan ölüm xəbərini gətirən Yalançı oğlu Yalancuq onun nişanlısı Banıçiçəyi almaq istəyir. Toy başlanır. Bu vaxt əsirlikdən qurtaran Bamsı Beyrək gəlib çıxır. Həqiqət aşkar olur. Günahının bağışlanması üçün imdad diləyən Yalancuq Bamsı Beyrəyin qılıncının altından keçməklə bir daha belə iş tutmayacağına and içir. Buradan anlaşılır ki, andın pozulması qılıncla doğranmaqla nəticələnəcəkdir.

Elə “Koroğlu” dastanında Dəli Həsən də Koroğlunun qılıncının altına enməklə, ona sadiq olacağına and içir.

Sözsüz, andiçmənin, bilavasitə qılıncla bağlı olması səbəbsiz deyil. Əski inanclara görə, qılınc Tanrı tərəfindən göydən göndərilib və çox vaxt qılınca elə “Tanrı” deyilmişdir. Bundan savayı, məşhur türk sərkərdəsi Atillanın qılıncı da səmadan gəlmiş qılınc bilinmişdir. Koroğlunun Misri qılıncı da göydən gəlmiş daşdan-ildırım materialından düzəldilib hazırlanmışdır. Qılıncdan savayı, digər nəsnələrin də and vasitəsi olması xalq yaradıcılığı və əfsanələrində özünə yer tapıb. Misal üçün, “Daşdəmirin nağılı” və “İlyasın nağılı”nda sirrin saxlanılacağına müxtəlif əşyalar vasitəsi ilə and içilir. Nağılların qəhrəmanları Daşdəmir də, İlyas da nara iynələr sancır, kağızı qayçı ilə xırda-xırda doğrayır, Daşdəmir əti tikə-tikə doğrayır, İlyas Quranı öpür.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 noyabr

## Sabunlar dəriyə necə təsir edir?

Üzünüzü sabunla yuyarkən dərinin təmizləndiyini və sızanaqların quruyacağını düşünürsünüzsə, yanılırsınız. Sabun dəridəki bütün yağları aparır. Halbuki, dərinin təbii sebum yağına ehtiyacı var. Sebum yağı dərini qoruyur və gözəl görüntü yaradır. Sabunladıqdan sonra dəri tez quruyursa, PH balansına uyğun olmadığı mənasına gəlir. Aşırı yağlı sabunlar məsamələri bağlayır və nəfəs almasına mane olur. Qara nöqtə və ləkələrin yaranmasına gətirib çıxarır.

Sızanaqlı dərilər üçün xüsusi hazırlanmış, quruducu və dəri yeniləyici xüsusiyyətə malik sabunlar alın. Sabun dəriyə aşırı quruluq yaradır və sızanaqlarda sağalma hiss olunmursa, sabun növünü dəyişdirin.

Kakao yağı tərkibli sabunlar quru dərilər üçün uyğundur. Dərini nəmləndirir və parlaqlıq bəxş edir. Şəffaf sabunların tərkibində qliserin var. Digər sabunlarla daha yumşaqdır və həssas dərilər dərilər üçün idealdır.

Zeytun yağı tərkibli sabunlar dərini nəmləndirir. Əgər yağlı və qarışıq dəriyə maliksinizsə, sabunlar dəridə sızanaq çıxmasına zəmin yaradır. Zeytun yağlı sabunlar quru dərilər üçün uyğundur.

Dəri baxımı və gözəllik üçün hazırlanmış sabunlar, çox rahat yuyulur və məsamələri bağlamır. Adi sabunlar yerinə bu sabunlardan istifadə edin.

Dəri təmizliyində sabundan istifadə etmək bir vərdiş halına gəlibsə və vaz keçə bilmirsinizsə, aşağıdakıları nəzərə alın.

Üzünüzü sabunla yuduqdan sonra mütləq bol ılıq su ilə yaxşıca yaxalayın.

Dəri tipiniz mövsümlərə görə dəyişə bilər. Yazda yağlı olan dəri qış mövsümündə quruya bilər. Bu halda olduğunuz mühitə görə sabun seçin.  Üz təmizliyi üçün ailədə sabunları ortaq istifadə etmək gigiyenik cəhətdən düz deyil. Əks halda sabun üzərində bakteriyalar üzünüzə daşına bilər.

## Ofisdə stress: aqressiyadan qurtulmağın yolu?

Bütün diqqəti işə yönələn insanın adi texniki nasazlıq, kənardan müdaxilə, hətta zarafat belə əsəblərini yerindən oynadır. Həmin şəxslər hər şey qaydasına düşəndən sonra hansı səbəbdən əsəbiləşdiyini izah edə bilmirlər, “özümdəm çıxdım”, “özümə hakim ola bilmədim” “ağlım başımdan çıxdı” kimi ifadələr işlədirlər.

Bəs görəsən işdə aqressiyanı yaradan səbəblər nədir? : “Səbəblər müxtəlif olur. İşi görəndə kompüter donur. Hətta elə olur ki, hirsim soyusun deyə kompüteri vurmaq; İnternet kəsilir; İş yoldaşım hündürdən danışır; Mənə yersiz suallar verirlər; Aclıq güc gəlir; Məvacibim gecikir; Mənim işim telefonla bağlı olduğu üçün, zənglərdən bezirəm. Qəfil bir zəng hansısa bir xəbər, məni əsəbləşdirir , “ və s.

Psixoloqlar isə bu vəziyyətin həm müsbət, həm də mənfi tərəflərinin olduğunu bildirir. Amerikalı mütəxəssislərin sözlərinə görə, əsəbləşən zaman insanda mənfi enerji yaranır ki, bu da hansısa formada çıxmalıdır. Kiməsə qışqırmaq , nəyisə vurub sındırmaq həmin mənfi enerjinin çıxmasına kömək etsə də, insana maddi və ya mənəvi ziyan vurur. Məsələn, istəmədən kiminsə xətrinə dəyə bilərik və ya özümüz haqqında mənfi rəy formalaşdıra bilərik. Mütəxəssislər belə halların daha çox Amerika, Avropa ölkələrində baş verdiyini deyirlər. Azərbaycanda isə milli mentalitet, ətrafdakılara hörmət hissi, eyni zamanda iş yerini itirmək qorxusu kimi məqamlar belə halların qarşısını alır. Psixoloqlar məsələhət görürlər ki, əsəbi işçini işdən qovmaqla ona daha bir zərbə endirmək yox, mümkün olduqca müalicəyə göndərmək lazımdır. Ofisdə əsəbini cilovlaya bilməyənlərə isə məsləhət görülür ki, kimsənin eşidib görməyəcəyi bir məkana çəkilib istədiyi kimi qışqıra, və ya ürəyini boşalda bilər. Məsələn, üzünü divara tutub “bəsdi məni narahat edin!” - deyib özünü sakitləşdirmək olar.


### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə IV kurs tələbəsi Əliyeva Əfsanə Sərxoş qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

x x x

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi İbrahimli Gülnaz Süleyman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


## “Neftçi” Azərbaycan kubokunda böyük hesablı qələbə qazanıb



Futbol üzrə Azərbaycan kuboku yarışlarının səkkizdəbir final mərhələsinin növbəti görüşündə “Neftçi” doğma meydanda “Zaqatala” klubunu qəbul edib. AZƏRTAC xəbər verir ki, baş hakim Rəşad Əhmədovun idarə etdiyi matçın ilk hissəsinin əvvəlində meydan sahibləri erkən qola seviniblər. Matçın səkkizinci dəqiqəsində Daniel Seqovia hesabı açıb. Görüşün 35-ci dəqiqəsində Daniel Seqovia dubl edib - 2:0. İlk hissə bu hesabla başa çatıb. Fasilədən sonra paytaxt təmsilçiləri qonaqları üçüncü dəfə oyuna meydanın mərkəzindən başlamağa dəvət ediblər. Görüşün 50-ci dəqiqəsində Uqo Barqas 11 metrlik cərimə zərbəsindən qayıdan topu rəqibin qapısından keçirib. Oyunun 54-cü dəqiqədə Daniel Seqovia het-trikə imza atıb. Matçın 59-cu dəqiqəsində Emin Mahmudov diqqət mərkəzində olub - 5:0. Beləliklə, oyun “Neftçi”nin 5:0 hesablı qələbəsi ilə yekunlaşıb və komanda dörddəbir finala yüksəlib.

## Ağır atletika üzrə Azərbaycan kuboku uğrunda turnir keçiriləcək




Dekabrın 2-3-də ağır atletika üzrə Azərbaycan kuboku turniri keçiriləcək. Azərbaycan Ağır Atletika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yarışda şəhər və rayonlardan, idman klub, cəmiyyət və mərkəzlərindən, UGİM-lərdən hazırkı əsasnamə üzrə təyin olunmuş dərəcə normalarını yerinə yetirən və tibbi müayinədən keçən yüzə yaxın atlet qüvvəsini sınayacaq. Azərbaycan kubokunun keçirilməsində məqsəd atletlərin hazırlıq vəziyyətinin yoxlanılması, ehtiyat qüvvənin nəzərdən keçirilməsi, güclü idmançıların seçilməsidir. Turnir Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında keçiriləcək.

## “Mançester Siti” David Silva ilə yeni müqavilə bağlamağa hazırlaşır



“Mançester Siti” yarımmüdafiəçisi David Silva ilə yeni müqavilə bağlamağa hazırlaşır. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumatına görə, 31 yaşlı futbolçuya təklif ediləcək sözləşmə 2020-ci ilin yayınadək nəzərdə tutulub. İspaniyalı futbolçu da İngiltərə klubunda qalmağa razıdır. Qeyd edək ki, 2010-cu ildən “Mançester Siti”də çıxış edən Silva 421 oyunda 69 qol vurub.

## “Qalatasaray” öz meydanında rəqibini darmadağın edib



İstanbulun “Qalatasaray” klubu, futbol üzrə Türkiyə kubokunun 1/16 final mərhələsində ilk oyununa çıxıb. Belə ki, “sarı-qırmızılılar” aşağı liqa təmsilçisi “Sivas Belediyyespor”la qarşılaşıb. Matç “Qalatasaray”ın erkən qolu ilə başlayıb. Uzun müddət qol vurulmayan görüşün son 20 dəqiqəsində azarkeşlər 5 topa şahidlik ediblər. İstanbul nəhəngi rəqibini 5:1 hesabı ilə darmadağın edib.

## Andre Villaş-Boaş Çin klubundan ayrıldı

Məşhur portuqaliyalı məşqçi Andre Villaş-Boaş  Çinin “Şanxay Şanqan” klubundan ayrılıb. Qol.az-ın “The Teleqraf”a istinadən yaydığı xəbərə görə, 40 yaşlı mütəxəssis bir müddət futbola fasilə vermək istədiyini açıqlayıb. Klubu müqaviləsi başa çatan Boaşa 1 illik sözləşmə təklif etsə, o, buna razı olmayıb. Qeyd edək ki, “Portu”, “Çelsi”, “Tottenhem”, “Zenit” kimi klubların baş məşqçisi olan Boaş ötən ilin noyabrından “Şanxay Şanqan”ı çalışdırırdı.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**